BEŞİKDƏN QƏBİR EVİNƏDƏK ÖYRƏNİN!
*Məhəmməd Peyğəmbər (S.)*

# GƏNC MÜƏLLİM

QƏZET 01.02.1958-ci İLDƏN ÇIXIR

Dekabr 2017
№ 8 (1087)

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN QƏZETİ



## Dünya azərbaycanlılarına

***Əziz həmvətənlər!***
***Hörmətli soydaşlar!***

Milli birlik və Vətənə məhəbbət kimi nəcib duyğuları təcəssüm etdirən 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində hər birinizi ürəkdən salamlayır və ən xoş arzularımı çatdırıram.

Qəlbi həmişə doğma yurda sevgi hissi ilə döyünən bütün soydaşlarımızın milli-mənəvi dəyərlərə bağlılığı və Azərbaycanla əlaqələrinin daha da möhkəmləndirilməsi daim dövlətimizin diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq məfkurəsinə əsaslanan ardıcıl tədbirlər xaricdə yaşayan həmvətənlərimizin daha sıx birliyinin təşəkkül tapmasına təkan vermiş, ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı faydalı münasibətlərinin inkişafında diaspor təşkilatlarının rolunu xeyli gücləndirmişdir.

Bu gün Azərbaycan Respublikası böyük iqtisadi, siyasi və mədəni potensiala malikdir. Bu potensial dövrün mürəkkəb çağırışlarına adekvat cavab vermək üçün bizə geniş imkanlar açır. Müstəqil dövlət kimi öz yolunu inamla davam etdirən ölkəmizdə qlobal maliyyə-iqtisadi böhranın təsirləri aradan qaldırılmış, sosial-iqtisadi inkişafın dayanıqlığı və davamlı ictimai-siyasi sabitlik təmin olunmuşdur. Təşəbbüskarı olduğumuz transmilli layihələrin həyata keçirilməsində yüksək nailiyyətlər qazanmışıq. Nəhəng neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin 2050-ci ilə qədər uzadılmasına dair sazişin imzalanması, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Şimal-Cənub nəqliyyat dəhlizinin ölkəmizdən keçən hissəsində işlərin başa çatdırılması respublikamızın tərəqqisi və xalqımızın rifahının yüksəlməsinə xidmət edir, Azərbaycanın dünyadakı geostrateji əhəmiyyətini artırır.

Mədəniyyətlərarası dialoqun təşviqi və ümumbəşəri problemlərin həlli sahəsində dövlətimizin ardıcıl və qətiyyətli mövqeyi beynəlxalq aləmdə rəğbət hissi ilə qarşılanır. 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun və IV İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsi Azərbaycanın multikulturalizmə və tolerantlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi.

Biz Vətənimizin hərtərəfli inkişafı ilə bağlı qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün əzmlə çalışırıq. Ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsində, qədim və zəngin mədəniyyətinin təbliğində, Azərbaycana qarşı təxribatçı əməllərin qarşısının alınmasında diaspor təşkilatlarının da üzərinə mühüm vəzifələr düşür. Buna görə də xaricdə yaşayan həmvətənlərimiz milli maraqlarımızın müdafiəsi naminə azərbaycançılıq ideyası ətrafında sıx birləşməlidirlər. İnanıram ki, sizin məqsədyönlü və birgə fəaliyyətiniz gücümüzü daha da artıracaq, hamımızı dərindən narahat edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə nizamlanmasına, ölkəmizin ərazi bütövlüyünün bərpasına sanballı töhfəsini verəcəkdir.

Sizə bu yolda möhkəm iradə və mütəşəkkillik, şəxsi həyatınızda səadət və firavanlıq arzulayıram.

***Bayramınız mübarək olsun!***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 25 dekabr 2017-ci il*

## Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi

Dekabrın 11-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) rəhbərliyi, professor-müəllim heyəti və tələbə kollektivi Fəxri Xiyabanda xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edib, məzarı önünə əklil və gül dəstələri qoyub. Xalqımızın görkəmli oftalmoloq alimi, akademik Zərifə Əliyevanın da xatirəsi ehtiramla yad edilib, məzarı önünə gül dəstələri qoyulub. Sonra universitetdə ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunan anım mərasimi keçirilib. Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.



Qeyd edək ki, xalqımızın böyük oğlu, Türk dünyasının məşhur siyasət və dövlət xadimi, ulu öndər Heydər Əliyevin vəfatından 14 il keçir. Ulu öndər Heydər Əliyev öz yenilməz iradəsi, qətiyyəti, müdrikliyi ilə bütöv şəxsiyyət idi. Sağlıqlarında xalqına, millətinə vicdanla xidmət edən böyük şəxsiyyətlər fiziki yoxluqlarından sonra da gərəkli olurlar. Ulu öndər Heydər Əliyev həm də öz böyük adı, mütərəqqi fikir və ideyalları ilə bütün bəşəriyyətin yaddaşına əbədi köçmüşdür. Heydər Əliyevin ideyaları həmişə yaşayır və qalib gəlir. Xalqımızın, millətimizin fədaisi olmuş ümummilli liderimiz Heydər Əliyev cismən bizim aramızda olmasa da, ruhən, mənən həmişə bizimlədir. Ulu Öndərimizin xatirəsi bizim üçün çox əziz və unudulmazdır. Bir sözlə, nə qədər müstəqil Azərbaycan xalqı, Azərbaycan dövləti var, ulu öndərimiz Heydər Əliyev də bizimlədir!



Müstəqil və müasir Azərbaycan ulu öndər Heydər Əliyevin şah əsəridir. Ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmiz həyatımızın bütün sahələrində böyük uğurlar, nailiyyətlər qazanır. Xalqımız gələcəyə nikbinliklə baxır.

Tədbir Filologiya fakültəsinin tələbələrinin hazırladıqları ədəbi-bədii kompozisiya ilə başa çatıb.

## "Əbdül Əlizadə: ənənəvi təhsildən təfəkkür məktəbinə" Respublika elmi-praktik konfransı

Dekabrın 6-da Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) görkəmli alim və müəllim, professor Əbdül Əlizadənin



85 illik yubileyinə həsr olunmuş "Əbdül Əlizadə: ənənəvi təhsildən təfəkkür məktəbinə" Respublika elmi-praktik konfransı keçirilib. Konfransda millət vəkili,



AMEA-nın müxbir üzvü, professor Bəxtiyar Əliyev, Bakı Dövlət Universitetinin (BDU) kafedra müdiri, professor Kamilə Əliyeva, BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin dekanı, professor Hikmət Əlizadə və ali təhsil müəssisələrinin alim-mütəxəssisləri iştirak ediblər.

Konfransı giriş sözü ilə açan ADPU-nun rektoru, professor Cəfər Cəfərov bildirib ki, biz bu gün böyük psixoloq-alim, görkəmli ziyalı, sadə, səmimi, xeyirxah insan, professor Əbdül Əlizadənin işığına toplaşmışıq. Əbdül Əlizadə Azərbaycan psixologiya elminin inkişafında mühüm xidmətlər göstərib. Rektor görkəmli alimin həyat və fəaliyyəti haqqında məlumat verərək bildirib ki, Əbdül Əli oğlu Əlizadə 1932-ci il avqust ayının 16-da Bakı şəhərində anadan olub. 1950-1955-ci illərdə Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) ali təhsil alıb. 1957-ci ildə "Azərbaycan məktəbi" jurnalında işləməyə başlayıb. Ə.Əlizadə görkəmli Azərbaycan filosofu və psixoloqu, professor Ə.Zəkuyevin rəhbərliyi ilə "Şagirdlərin yaradıcı təxəyyül fəaliyyətində analiz və sintez proseslərinin xüsusiyyətləri"ni öyrənib. Onu aktual bir məsələ-təxəyyüldə informasiyaların işlənməsi prosesi maraqlandırırdı. 60-cı illərdə informasiyaların işlənmə prosesi XX və XXI əsrlər psixologiyasında önəmli yer tutan koqnitiv psixologiyanın əsas problemlərindən biri idi. Gənc alim də təxəyyülün xüsusiyyətlərini məhz bu kontekstdə araşdırırdı.

**(Davamı 2-ci səhifədə)**

# “Əbdül Əlizadə: ənənəvi təhsildən təfəkkür məktəbinə” Respublika elmi-praktik konfransı

(Əvvəli 1-ci səhifədə)

1975-ci ildə Ə.Əlizadə ”Cinsi demorfizm və şəxsi qarşılıqlı münasibətlərin formalaşmasının psixoloji problemləri” mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə edib. Ə.Əlizadənin doktorluq dissertasiyası Azərbaycan psixologiyasında mühüm hadisə idi. Bu tədqiqatla Azərbaycan psixologiyasında yeni elmi istiqamət - cinsi fərqlər psixologiyası istiqaməti yarandı və uğurla inkişaf etməyə başladı.

1964-cü ildə dövrün psixoloji fikrini sistemli əks etdirən sanballı ”Psixologiya” dərsliyi nəşr olundu. Onun 6 müəllifindən 3-ü respublikanın qocaman psixoloqları - Ə.Zəkuzadə, F.İbrahimbəyov və M.Məhərrəmov, 3-ü isə istedadlı gənc psixoloqlar -Ş.Ağayev, Ə.Bayramov və Ə.Əlizadə idi. 1968-ci ildə Ə.Əlizadənin professor Y.Kərimovla birlikdə yazdığı ”İlk addımlar” (məktəbəqədər uşaq müəssisələri üçün), 1986-cı ildə Ə.Bayramovla birlikdə yazdığı ”Sosial psixologiyanın aktual məsələləri”, 1989-cu ildə isə professor Ə.Bayramovla birlikdə yazdığı fundamental ”Psixologiya” dərsliyi nəşr olundu. Ə.Əlizadə IX və X siniflər üçün ”İnsan və cəmiyyət” dərsliyinin də həmmüəllifidir. Bu dərslik Azərbaycan və rus dillərində iki dəfə nəşr olunub.

80-ci illərin ikinci yarısında Azərbaycan məktəblərində maraqlı bir fənn - ”Ailə həyatının etikası və psixologiyası” fənni tədris olunmağa başlandı. Professor Ə.Əlizadə ”Elmi xəbərlər”in (psixologiya və pedaqogika seriyası) baş redaktoru,







”Azərbaycan məktəbi” jurnalının redaksiya heyətinin üzvi kimi də səmərəli fəaliyyət



göstərib. Azərbaycanın ilk psixoloq alimlərindən olan Ə.Əlizadə uzun müddət ADPU-nun Ümumi psixologiya kafedrasının müdiri vəzifəsində işləyib. Çoxlu sayda yüksək səviyyəli elmi əsərin, məqalənin, dərslik və dərs vəsaitlərinin müəllifidir. Ənənəvi təhsildən təfəkkür məktəbinə keçidin psixoloji aspektlərini araşdıran alim bu sahədə dəyərli əsərlər yaradıb. Elmi-pedaqoji kadrların hazırlanması sahəsində əvəzsiz xidmətlər göstərib. Ə.Əlizadə müxtəlif mötəbər beynəlxalq elmi konfrans, simpozium, konqres və digər elmi tədbirlərdə Azərbaycanı layiqincə təmsil edib. Onun elmi-pedaqoji fəaliyyəti ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib. O, “Əməkdar elm xadimi” fəxri adına və “Şöhrət” ordeninə, həmçinin Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb.

Təhsilin nəzəriyyə və praktikası ilə məşğul olan görkəmli pedaqoq, psixoloq-alim, professor Ə.Əlizadə 22 fevral 2015-ci ildə vəfat edib. Ə.Əlizadənin əziz xatirəsi daim qəlbimizdə yaşayacaq.

Konfransın plenar iclasında professor Bəxtiyar Əliyev, ADPU-nun Elmi işlər üzrə prorektoru, professor Asəf Zamanov çıxış edərək professor Ə.Əlizadəni çoxşaxəli elmi yaradıcılığa malik alim, xalqına, dövlətinə, Vətəninə sədaqətlə xidmət edən vətəndaş, həssas, qayğıkeş insan kimi səciyyələndirərək onunla bağlı xatirələrini bölüşüblər.

Professor Ə.Əlizadənin oğlu, professor H.Əlizadə çıxış edərək tədbirin keçirilməsinə görə ADPU-nun rəhbərliyinə təşəkkür edib.

Konfransda Ümumi psixologiya kafedrasının müdiri, professor Ramiz Əliyev “Professor Əbdül Əlizadə-ləyaqətli insan, istedadlı alim” mövzusunda məruzə ilə çıxış edib, görkəmli alimlə bağlı videoçarx nümayiş etdirilib.

Sonra konfrans öz işini bölmə iclaslarında davam etdirib. Konfransın 3 bölmədə keçirilən iclaslarında ümumilikdə 110 məruzə dinlənilərək müzakirə edilib.

**Mənsur İbrahimli**

# TÜRKSOY kafedrasının açılış mərasimi

Dekabrın 7-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) TÜRKSOY kafedrasının açılış mərasimi keçirilib. Tədbirdə ADPU-nun rəhbərliyi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) baş katibi, professor Düsen Kaseinov, Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral, TÜRKSOY-un Azərbaycan nümayəndiliyinin rəhbəri Elçin Qafarlı, Qazaxıstanın Azərbaycandakı səfirliyinin əməkdaşları, Qırğızıstanın və Şimali Kipr Türk Respublikasının təmsilçiləri, universitetin fakültə dekanları və kafedra müdirləri, müəllimləri, Türk dünyasının tanınmış elm və təhsil xadimləri, şair və yazıçıları, media nümayəndələri iştirak ediblər.



Mərasimdə öncə TÜRKSOY kafedrasının rəmzi açılışını bildirən lent kəsilib. ADPU-nun rektoru, professor Cəfər Cəfərov qonaqları salamlayaraq professor Düsen Kaseinovu yenidən TÜRKSOY-un baş katibi seçilməsi münasibətilə təbrik edib və ona yeni-yeni uğurlar arzulayıb. Rektor bildirib ki, ADPU ölkəmizin böyük tarixə malik olan aparıcı universitetlərindən biridir. Pedaqoji kadr hazırlığını həyata keçirən ADPU zəngin elm və təhsil ənənələrinə malikdir. ADPU-da Türk dünyasının həmrəyliyi, birliyi, eləcə də türk ədəbiyyatı-



nın, tarixinin, mədəniyyətinin elmi tədqiqi və təbliği istiqamətində mühüm işlər həyata keçirilir. ADPU Türkiyənin bir çox universitetləri ilə elm və təhsil sahəsində uğurlu əməkdaşlıq edir. Universitetdə TÜRKSOY kafedrasının açılması da bu istiqamətdə atılan vacib addımlardan biridir. TÜRKSOY kafedrası ölkəmizin ali təhsil müəssisələri arasında ilk dəfə olaraq ADPU-da yaradılıb. Rektor çıxışında TÜRKSOY-un fəaliyyətini yüksək qiymətləndirib, TÜRKSOY ilə ADPU arasında əməkdaşlıq əlaqələrinin daha da genişlənəcəyini vurğulayıb.

TÜRKSOY-un baş katibi, professor Düsen Kaseinov çıxış edərək TÜRKSOY kafedrasının yaradılmasından və bütövlükdə ADPU-nun Türk dünyasının inteqrasiyasına dəyərli töhfələr verməsindən məmnun qaldığını bildirib və universitetin rəhbərliyinə təşəkkür edib.

Tədbirdə TÜRKSOY-un fəaliyyətini əks etdirən film nümayiş olunub.

Mərasimdə ADPU ilə TÜRKSOY arasında təhsil və mədəniyyət sahəsində əməkdaşlıq protokolu imzalanıb. Protokolda ADPU və TÜRKSOY, eləcə də TÜRKSOY-a üzv olan ölkələr arasında mədəni əlaqələri və elmi-mədəni mübadiləni təmin etmək, türk mədəniyyəti ilə bağlı elmi araşdırmalar aparmaq, təhsil sahəsində ortaq layihələr hazırlamaq, inkişaf etdirmək və qarşılıqlı əməkdaşlıq öz əksini tapıb.

Mərasimdə Filologiya fakültəsinin dekanı, professor Buludxan Xəlilova, “Türk araşdırmaları” elmi-tədqiqat laboratoriyasının müdiri, professor Elman Quliyevə, Ədəbiyyat və onun tədrisi metodikası kafedrasının professoru Yaqub Babayevə və Azərbaycan və dünya ədəbiyyatı kafedrasının professoru Mahmud Allahmanlıya Molla Pənah Vaqifin 300 illik yubileyi münasibətilə TÜRKSOY tərəfindən təsis edilmiş medallar təqdim olunub.

Mərasimdə hədiyyələr verilib. Musiqi, təsviri incəsənət, fiziki tərbiyə və çağırışaqədər hazırlıq fakültəsinin tələbələrinin ifasında təqdim edilən bədii-musiqili hissə tədbir iştirakçılarında xoş ovqat yaradıb. Sonda xatirə şəkli çəkdirilib.

Mərasimdən sonra rektor Cəfər Cəfərov qonaqları ADPU-nun binası ilə tanış edib, tədris prosesi, həyata keçirilən islahatlar və yeniliklər barədə məlumat verib.

Qeyd edək ki, TÜRKSOY-un və ADPU-nun birgə qərarı əsasında TÜRKSOY kafedrasına rəhbərlik Elmi işlər üzrə prorektor, professor Asəf Zamanova tapşırılıb.

**Könül Nəzərova**

# “ADPU Səs-2” mahnı müsabiqəsinin final konserti

Dekabrın 13-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə “ADPU Səs-2” mahnı müsabiqəsinin final konserti keçirilib. Qeyd edək ki, sentyabr ayından başlayan “ADPU Səs-2” nin seçim turu noyabrın 24-də keçirilib. Seçim turunda iştirak edən 47 tələbədən 22-si 1-ci mərhələdən uğurla keçib. Davamlı məşqlərdən sonra dekabrın 13-də final konserti keçirilib. Konserti ADPU-nun rektoru, professor Cəfər Cəfərov izləyib. Konsertin sonunda Münsiflər Heyətinin qərarına əsasən yarış iştirakçılarından 2 nəfər I yerə, 2 nəfər II yerə, 2 nəfər III yerə layiq görülüblər.

I yeri Filologiya fakültəsinin tələbəsi Ceyhun Qurbanov, I tədris ili magistri Aygün Abbaszadə, II yeri Filologiya fakültəsinin tələbəsi Fərid Abbaslı, I tədris ili magistri Əsmər Ələkbərova, III yeri isə Musiqi, təsviri incəsənət, fizki tərbiyə və çağırışaqədər hazırlıq fakültəsinin tələbəsi Dünyaxanım Babayeva, Kimya və biologiya fakültəsinin tələbəsi Röya Əliyeva tutublar.





ADPU-nun Tərbiyə işləri üzrə prorektoru, professor Fikrət Rzayev çıxış edərək qalib gələn tələbələri təbrik edib və onlara uğurlar arzulayıb.

Qalib tələbələr diplom və mükafatla təltif olunublar.

# ADPU-nun rektoru, professor Cəfər Cəfərov və Beynəlxalq əlaqələr üzrə prorektoru Nigar Abbaszadə Avstriyanın İMC Krems Tətbiqi Elmlər Universitetinin Fəxri Əməkdaşı və Fəxri Professoru adına layiq görüldü

Dekabrın 8-də "Azərbaycan-Avstriya Turizm Proqramının" ənənəvi məzun görüşü keçirilmişdir. Avstriyanın Bakıdakı səfirliyinin iqamətgahında baş tutan görüşdə cənab səfir Axel Wech, Azərbaycan Turizm və Menecment Universitetinin rektoru İlham Mədətov və qurucu rektoru, professor Cəfər Cəfərov, İMC Krems Tətbiqi Elmlər Universitetinin rəhbərliyi, AATP proqramı üzrə dərs deyən müəllimlər və bu proqram üzrə məzun olmuş tələbələr iştirak etmişlər.

Qonaqları salamlayan cənab səfir Axel Wech sözü İMC Krems Tətbiqi Elmlər Universitetinin rektoru, xanım Eva Wernerə verdi. Eva Werner ilk öncə tədbirin səfirliyin iqamətgahında keçirilməsi üçün yaratdığı şəraitə və qonaqpərvərliyinə görə cənab səfirə təşəkkür etdi. Belə bir mərasiminin tərəfdaş universitetdə ilk dəfə qeyd edildiyini vurğulayan xanım Eva Werner bu təşəbbüsün universitetlərarası əməkdaşlığının inkişafının və dəyərinin göstəricisi olduğunu qeyd etdi.



Daha sonra qonaqları salamlayan ATMU-nun rektoru İlham Mədətov öz növbəsində mükafata layiq görülən müəllim və məzunları təbrik etdi.

Qeyd edək ki, tədbir rektor Eva Wernerin xidmətlərinə görə professor Cəfər Cəfərova, prorektor Nigar Abbaszadəyə, proqram üzrə 5 ildən çox pedaqoji fəaliyyəti olan müəllim və məzun olmuş tələbələrə rəsmi sertifikatları təqdim etməsi ilə davam etdi. İMC Krems Tətbiqi Elmlər Universitetinin Elmi Şurasının 21 noyabr 2017-ci il tarixli iclasının qərarına əsasən Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov "Fellow Award"- Fəxri Əməkdaş adına, 29 noyabr 2017-ci il tarixli iclasının qərarı ilə isə ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Nigar Abbaszadə "Award of Honorary Professorship" - Fəxri Professor adına layiq görülmüşlər.

Rektor Eva Werner həvəsli təhsil lideri, əməkdaşlığın aparıcı şəxsi kimi professor Cəfər Cəfərovun AATP proqramının inkişafındakı rolunu qeyd edərək ona yaratdığı şəraitə görə təşəkkürünü bildirdi. Eyni zamanda, İMC-nin Fəxri Əməkdaşı adının nadir hallarda xarici vətəndaşlara verildiyini, Cəfər Cəfərovun tədris və tədqiqat işlərindəki, rəhbərlikdəki xidmətlərinə görə seçilərək bu ada layiq görüldüyünü vurğuladı. O, həmçinin layihənin ilk günündən verdiyi dəstəyə və layihədəki birgə xidmətlərinə görə prorektor Nigar Abbaszadəyə təşəkkür etdi.

Çıxışı zamanı İMC Krems Universitetinin təsisçisi və fəxri doktoru Heinz Boyer ilk öncə cənab nazir Əbülfəs Qarayevə, daha sonra professor Cəfər Cəfərova layihənin reallaşdırılmasına verdiyi dəstəyə görə öz dərin təşəkkürünü bildirdi. O, belə bir layihənin reallaşdırılmasının nə qədər çətin bir missiya olduğunu və bu çətin öhdəliyin həyata keçirilməsində Cəfər Cəfərovun xidmətlərini yüksək qiymətləndirdiklərini vurğulayaraq ona minnətdar olduğunu qeyd etdi.

Qeyd edək ki, 2007-ci ildən etibarən Krems Tətbiqi Elmlər Universiteti ilə Azərbaycan Turizm və Menecment Universiteti arasında "İkili diplom" layihəsi mövcuddur. Belə ki, 162 bakalavr, 13 magistrın (175 nəfər) məzun olduğu bu proqramın tələbələri həmin universitetin tədris planına uyğun Turizm və Rekreasiya Menecmenti üzrə bakalavr və magistr səviyyələrində təhsil imkanı əldə edərək İMC Krems Tətbiqi Elmlər Universitetinin diplomunu alırlar.

# Bülbülün 120 illik yubileyinə həsr olunmuş konsert proqramı

Dekabrın 8-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Musiqi, təsviri incəsənət, fiziki tərbiyə və çağırışaqədər hazırlıq fakültəsinin təşəbbüsü və təşkilatçılığı ilə universitetdə görkəmli opera müğənnisi, təsnif ifaçısı, musiqi folkloru tədqiqatçısı, Xalq artisti Bülbülün 120 illik yubileyinə həsr olunmuş konsert proqramı keçirilib. Tədbirdən öncə iştirakçılar Bülbüllə bağlı sərgi ilə tanış olublar.



Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu il mayın 11-də "Bülbülün 120 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, 2017-ci ildə Azərbaycan professional vokal məktəbinin banisi, görkəmli müğənni, tədqiqatçı-alim və pedaqoq, tanınmış ictimai xadim, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı Bülbülün (Murtuza Məşədi Rza oğlu Məmmədovun) anadan olmasının 120 illiyi tamam olur. Böyük sənətkar Bülbül zəngin yaradıcılıq yolu keçmiş və özünün çoxşaxəli fəaliyyəti ilə Azərbaycanın musiqi mədəniyyəti tarixində silinməz izlər qoymuşdur. Onun Şərqlə Qərbin musiqi ənənələrinin qovuşuğunda novatorcasına yüksək məharətlə canlandırdığı rəngarəng obrazlar ifaçılıq sənətinin bənzərsiz nümunələridir. Milli musiqi xəzinəsi incilərinin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılmasında Bülbülün müstəsna xidmətləri vardır. Sərəncamda milli musiqi mədəniyyətinin inkişafı, tədqiqi və təbliği işinə misilsiz töhfələr vermiş Xalq artisti Bülbülün 120 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədilə müvafiq dövlət təşkilatlarının tədbirlər planını hazırlayıb həyata keçirilmələri öz əksini tapıb.

Tədbirdə Musiqi və onun tədrisi metodikası kafedrasının baş müəllimi Şəhla Quliyeva çıxış edərək Bülbülün həyat və yaradıcılığı haqqında məlumat verib. Bildirib ki, Bülbül 1897 -ci il iyunun 22-də Şuşa yaxınlığında, hazırda Xankəndinin cənub ərazisi olan Xanbağı adlanan yerdə anadan olmuşdur. 1907-ci ildə Bülbül Şuşa mollaxanasında musiqi savadı almağa başlamışdır. 1909-cu ildə Bülbül Gəncəyə köçür. Burada gənc xanəndənin şöhrəti başlayır. 1911-ci ildən başlamışdır. 1920-ci ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının (o zamanlar Birləşmiş Dövlət Teatrı opera truppası) solisti olmuşdur. Fəaliyyətinin ilk illərində Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" (İbn Salam), "Əsli və Kərəm" (Kərəm), Zülfüqar Hacıbəyovun "Aşıq Qərib" (Qərib) operasında oynamışdır. 1927-ci ildə Bakı Konservatoriyasını bitirmişdir. Təhsilini davam etdirmək üçün dövlət xətti ilə İtaliyanın Milan şəhərinə getmişdir. 1931-ci ildə Milan Konservatoriyasını (Cüzeppe Anselmi, Delliponti və R. Qraninin sinfini) bitirib Azərbaycana qayıtmış və Azərbaycan Dövlət Konservatoriyasında dərs deməyə başlamışdır. 1932-ci ildə onun təşəbbüsü ilə Azərbaycan Dövlət Konservatoriyasının nəzdində Azərbaycan xalq musiqisini öyrənən elmi-tədqiqat kabineti yaradılmışdır. 1938-ci ildə "SSRİ xalq artisti" adına layiq görülmüşdür. 1940-cı ildə professor seçilmişdir. 1950-ci ildə SSRİ Dövlət Mükafatı laureatı olmuşdur. Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. 2 dəfə "Lenin" ordeninə, 2 dəfə "Qırmızı Əmək Bayrarğı" ordeninə, "Şərəf nişanı" ordeninə, İtaliyanın "Qaribaldi" ordeninə və medallara layiq görülmüşdür. 1961-ci il sentyabrın 26-da Bakı şəhərində vəfat etmişdir. Məzarı Fəxri Xiyabandadır. Hazırda Bakı şəhərində mərkəzi küçələrdən biri Bülbülün adını daşıyır, onun adına Azərbaycan Dövlət Konservatoriyasının nəzdində musiqi məktəbi fəaliyyət göstərir.

Şəhla Quliyeva qeyd edib ki, təbiətin nadir nemətlərindən biri də gözəl səsdir. Gözəl səs hər xalqın mədəniyyət xəzinəsini bəzəyən ən qiymətli incilərindəndir. Bu il 120 illik yubileyini qeyd etdiyimiz Bülbül də belə nadir səs sahibi idi.Onun səsi, oxuduğu mahnı və təsniflər, romanslar, yaratdığı obrazlar əbədi şöhrət, ölməzlik qazanmışdı. Bülbülün çox geniş diapazonlu gözəl, emosional səsi, yüksək vokal texnikası, təkrarsız diksiyası və geyri-adi nəfəsi var idi. O, incəsənətdə əsl möcüzə yaradan sənətkar idi.Öz səsi ilə insanların ürəyində gözəllik, xeyirxahlıq, fədakarlıq və digər hisslər oyadırdı. Bülbül yaradıcılıq fəaliyyəti dövründə öz vokal sənəti məktəbini yaratmasıdır. Həmçinin Bülbül Azərbaycan xanəndəlik məktəbi ilə ümumavropa və rus



ifaçılıq məktəbinin sintezini əyani sürətdə nümayiş etdirən Azərbaycan professional vokal məktəbinin yaradıcısı olmuşdu.

Bülbül ilk baxışda bir-birindən çox uzaq olan iki musiqi dünyasını - Şərq və Qərb musiqisini öz sənəti ilə yaxınlaşdırıb, birləşdirib, yüksək sənət örnəkləri yaratmışdır. Bununla da yalnız Azərbaycanda deyil, bəlkə də bütün İslam Şərqində yeni vokal üslubunun təməlini qoymuşdur. İtalyan operalarındakı ariyalardan "Çahargah", "Müxalif" təsniflərinə qədər uzanan ucsuz-bucaqsız bir musiqi dünyası Bülbülün ezaskar səsində birləşirdi. Yəni bu gözəl səsdə 2 musiqi aləmi - Avropa və Şərq musiqisi bir-birinə qovuşurdu.

Bülbül təkrarolunmaz sənətkar idi. O, Azərbaycan vokal sənətinin banisidir. Onun yaradıcılıq diapazonu olduqca geniş və çoxşaxəlidir. Azərbaycan muğamlarından, xalq mahnılarından tutmuş Azərbaycan, rus, Avropa bəstəkarlarının əsərlərinə qədər ifa etdiyi musiqi nömrələri Bülbülün sözün əsl mənasında böyük sənətkar olduğunu bir daha sübut edir. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda musiqi xadimlərinə, ədəbiyyat və incəsənət adamlarına böyük qiymət vermiş və Bülbül haqqında belə demişdir: "Bülbül, onun yaradıcılığı Azərbaycan mədəniyyətinin tarixində nadir, parlaq bir hadisədir".

Tədbirdə tələbələr Mirvarid Dilbazinin "Oxu Bülbül, oxu Bülbül!", İlyas Tapdıqın "Bülbül" şeirlərini söyləyiblər, fakültənin birləşmiş xorunun ifasında "Gülə-gülə", "Qara gözlər" xalq mahnıları təqdim edilib. Bülbüllə bağlı slaydlar nümayiş olunub, Azərbaycan və italyan dillərində musiqilər, Asəf Zeynallının "Ölkəm" romansından bir parça, Niyazinin "Arzu", "Vətən nəğməsi" mahnıları, Bülbülün ifsında "Koroğlu" operasından Koroğlunun ariysı, "Gözlə məni", "Gülə-gülə" xalq mahnısı, Üzeyir Hacıbəylinin "Sevgili canan", Tofiq Quliyevin "Bakı haqqında mahnı"sı səsləndirilib.

Konsert proqramı hamıda yüksək əhval-ruhiyyə, xoş ovqat yaradıb.

**Mahirə Mustafayeva**

# ABŞ-ın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Robert Sekuta ilə görüş





Dekabrın 21-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Amerika Birləşmiş Ştatlarının (ABŞ) ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Robert Sekuta ilə görüş keçirilib. Görüşdə ADPU-nun rəhbərliyi, fakültə dekanları, kafedra müdirləri, müəllim və tələbələr iştirak ediblər.

ADPU-nun rektoru, professor Cəfər Cəfərov görüşü giriş sözü ilə açaraq səfir Robert Sekutanın fəaliyyəti haqqında məlumat verib. Rektor bildirib ki, cənab Robert Sekuta 2015-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri təyin edilib. Bundan öncə cənab Sekuta ABŞ Dövlət Departamentinin Enerji Resursları Bürosunda Dövlət katibinin köməkçisinin əsas müavini vəzifəsində çalışıb. Burada o, yeni Enerji Bürosunun yaradılması fəaliyyətinə və qlobal enerji təhlükəsizliyi proqramlarının uğurla həyata keçirilməsinə həlledici rəhbərlik edib, eyni zamanda qlobal neft və qaz istehsalı sahəsində korrupsiyaya qarşı mübarizə, yaxşı idarəçilik və hesabatlıq təcrübəsinin qurulması istiqamətində aparılan təşəbbüslərə nəzarət edib. O, əvvəllər Dövlət Departamentinin İqtisadiyyat, Enerji və Biznes Məsələləri Bürosunda Dövlət katibinin köməkçisinin enerji, sanksiyalar və əmtəə üzrə müavini vəzifəsində, İqtisadiyyat, Enerji və Biznes Məsələləri Bürosunda ərzaq təhlükəsizliyi üzrə baş məsləhətçi, Kabil şəhərindəki Səfirlikdə iqtisadiyyat və inkişaf məsələləri üzrə əlaqələndirici direktorun əsas müavini, Tokio şəhərindəki Səfirlikdə iqtisadiyyat məsələləri üzrə diplomatik nümayəndə-məsləhətçi, Berlin şəhərindəki Səfirlikdə iqtisadiyyat məsələləri üzrə diplomatik nümayəndə-məsləhətçi, İqtisadiyyat və Biznes Məsələləri Bürosunda İraq iqtisadiyyatı qrupunun rəhbəri, İqtisadiyyat və Biznes Məsələləri Bürosunda biotexnologiya üzrə xüsusi vasitəçi, İqtisadiyyat və Biznes Məsələləri Bürosunda iqtisadi-siyasi təhlil və xalq diplomatiyasının rəhbəri, ABŞ-ın Ticarət Nümayəndəliyinin ofisində aparıcı məsləhətçi və Tirana şəhərindəki Səfirlikdə missiya rəhbərinin müavini vəzifələrində çalışıb. Bundan əlavə o, Kosova üzrə işçi qrupuna rəhbərlik edib və karyera fəaliyyətinin ilk dövrlərində Yaxın Şərq və Cənubi Asiya Məsələləri Bürosunda fəaliyyət göstərib. Vyana, Bağdad, Yohannesburq və Sana şəhərlərində də fəaliyyət göstərib.

Cənab Sekuta Corctaun Universitetinin Diplomatik xidmət üzrə bakalavr dərəcəsini bitirib, Thunderbird Qlobal Menecment Məktəbinin magistratura dərəcəsini başa vurub və Vaşinqton D.C.-dəki Milli Müdafiə Universitetində magistratura dərəcəsi üzrə təhsil alıb. Dövlət Departamenti tərəfindən çoxsaylı mükafatlara layiq görülüb. Alman, alban və ərəb dillərində, eləcə də müəyyən qədər azərbaycan dilində danışır. Evlidir, üç övladı var.

Səfir Robert Sekuta çıxış edərək görüşün keçirilməsinə görə ADPU-nun rəhbərliyinə təşəkkür edib. Qeyd edib ki, Amerika ilə Azərbaycan arasında yaxşı əlaqə və münasibətlər var. Bu əlaqə və münasibətlərin yaxşı olmasının əsas səbəbi hər iki ölkənin buna səy göstərməsidir. ABŞ Azərbaycanı güclü, müasir, demokratik dövlət kimi görmək istəyir. Azərbaycanda yüksək multikulturalizm və tolerantlıq mühiti var. Azərbaycan dinlər və mədəniyyətlərarası dialoqların uğurla həyata keçirildiyi bir ölkədir. ABŞ Azərbaycanla münasibətlərində ən çox 3 amilə - təhlükəsizlik məsələsinə, iqtisadi sahədə əməkdaşlığa və yaxşı idarəetmə amilinə üstünlük verir. ABŞ ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli istiqamətində səylərini davam etdirir. ABŞ Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlıq edir. Azərbaycan hərbiçilərinin NATO standartlarına uyğun təlim keçmələrinə, həmçinin ANAMA-nın fəaliyyətinə kömək edir. Eyni zamanda ABŞ-ın təhsil sisteminin son nailiyyətlərinin Azərbaycanda öyrənilməsi və tətbiq edilməsi istiqamətində müxtəlif layihələr gerçəkləşdirilir, Bakıda və bölgələrdə ingilis dilinin tədrisinə dəstək verilir. Bilik və bacarıqlar çox önəmlidir. Hazırda "ömürboyu təhsil" anlayışı həyatımıza geniş daxil olub. Müasir dünyamızın sürətli inkişafına uyğun olaraq əldə edilən bilik və bacarıqlar daim yenilənməli, təkmilləşməlidir. Həmçinin qazanılan bilik və bacarıqların tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Müəllimlik bütün dünyada gözəl və müqəddəs peşə hesab edilir. Səfir çıxışının sonunda universitetin kollektivinə uğurlar arzulayıb.

Görüşdə iştirakçıların müxtəlif sualları cavablandırılıb, maraqlı fikir mübadiləsi aparılıb.

Sonda səfir Robert Sekutaya hədiyyə təqdim edilib, xatirə şəkilləri çəkdirilib.

# Şair Baba Vəziroğlunun yaradıcılıq gecəsi

Dekabrın 14-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Tələbə Gənclər Təşkilatının (TGT) Filologiya fakültəsi təşkilatının və Kitab klubunun birgə təşkilatçılığı ilə tanınmış və istedadlı şair, nasir, tərcüməçi, kinodramaturq, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar incəsənət xadimi, "Humay" mükafatı laureatı Baba Vəziroğlunun "Məndən bir də olmayacaq!" adlı yaradıcılıq gecəsi keçirilib. Tədbirdə ADPU-nun rəhbərliyi, müəllim və tələbələri iştirak ediblər.





Tədbirdə giriş sözü ilə çıxış edən Filologiya fakültəsinin dekanı, professor Buludxan Xəlilov Baba Vəziroğlunun həyat və yaradıcılığından danışaraq gənclərin şeirə, poeziyaya marağından söz açıb. Baba Vəziroğlunun gənclər arasında ən çox oxunan şairlərdən biri olduğunu qeyd edib. Bildirib ki, şairin misraları həm dillərdə, həm mahılarda yaşayır. Onun mindən çox şeirinə mahnı bəstələnib.

Sonra tələbələr Baba Vəziroğlunun "İlahi", "Unut görüm", "Ayrılıq", "Bağışlaram səni", "Sənsiz keçən günlərim" şeirlərini və şeirləri əsasında bəstələnmiş "Nigaranam", "Dəniz", "Xatirədir" mahnılarını ifa ediblər.

Tədbirdə Baba Vəziroğlunun "Vətən" şeiri əsasında bəstələnmiş eyniadlı musiqi ifa edilib.

Baba Vəziroğlu çıxış edərək görüşün keçirilməsinə görə ADPU-nun rəhbərliyinə təşəkkür edib, tələbə-gənclərin suallarını cavablandırıb və öz şeirlərini oxuyub.

Sonda xatirə şəkli çəkdirilib.

**Könül Nərimanqızı**

# İşə yeni qəbul edilən əməkdaşlarla görüş

Dekabrın 19-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) rektoru, professor Cəfər Cəfərov işə yeni qəbul edilən əməkdaşlarla görüş keçirib. Görüşdə ADPU-nun İnzibati-təsərrüfat işləri üzrə prorektoru Ümid Mehdiyev, Tədrisin İdarə Olunması və Tədris Texnologiyaları Mərkəzinin direktoru, dosent Sənan Əliyev, vakant vəzifələrin tutulması üzrə yaradılmış Müsabiqə Komissiyasının üzvləri: İnsan resursları şöbəsinin müdiri Qumral Qədimova, Elm və innovasiyalar şöbəsinin müdiri, dosent Yusif Alıyev və dosent Razim Məmmədov iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan ADPU-nun rektoru, professor Cəfər Cəfərov bildirib ki, bu gün universitetin həyatında əlamətdar bir gündür. Universitetdə həyata keçirilən islahatların əsas istiqamətlərindən biri kadr islahatlarıdır. İdarəetmənin optimallaşdırılması, təhsilin keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, insan resurslarının inkişaf etdirilməsi qarşımızda duran əsas hədəflərimizdən biridir. Bir müddət öncə kafedralarda tədris olunan fənlər üzrə vakant professor, dosent, baş müəllim və müəllim vəzifələrinin tutulması üçün müsabiqə keçirilib. Əvvəllər bu seçki formal şəkildə keçirilib. Biz real, demokratik, alternativ əsaslarla müsabiqə təşkil etdik və bu müsabiqə uğurlu alındı. Xüsusi qeyd etmək istəyirəm ki, bu müsabiqə ölkəmizin ali məktəbləri arasında ilk dəfə ADPU-da keçirilib. Müsabiqə ölkəmizin tanınmış və nüfuzlu təhsil ekpertləri, eləcə də təhsil ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilib. Həmçinin bir müddət əvvəl vakant fakültə dekanları və kafedra müdirlərinin seçilməsi üçün müsabiqə keçirilib. Bu müsabiqə də şəffaf və obyektiv, qanunvericiliyin tələblərinə uyğun keçirilib. Başlıca hədəfimiz şəffaflığın təmin edilməsi, təhsilin keyfiyyətinin yaxşılaşdırılmasıdır. Bütün bunlarla yanaşı, tədris-yardımçı heyətin, tyutorların, laborantların seçki yolu ilə işə qəbul edilməsi də ali təhsil sistemimizdə ilk dəfə ADPU-da tətbiq edilib.

Rektor qeyd edib ki, vakant vəzifələrin tutulması üçün Müsabiqə Komissiyası yaradılıb. Müsabiqə barədə mediada müvafiq elan dərc edilib, universitetin saytında yerləşdirilib, bu barədə sosial şəbəkələrdə məlumatlar paylaşılıb. Müsabiqəyə çıxarılan 22 vakant vəzifə üçün 91 nəfər namizədin sənədi qəbul edilib. Müsabiqə 2 mərhələdə keçirilib. Müsabiqənin 1-ci mərhələsində dekanlıq və kafedralardan 27 nəfər haqqında müsbət rəy alınıb və onlar 2-ci mərhələyə buraxılıblar. Komissiyanın keçirdiyi müsahibə və qiymətləndirmə nəticəsində 19 nəfərin sənəd verdiyi vəzifəyə təyin olunması məqsədəuyğun hesab edilib. Onlardan 10 nəfəri ADPU-nun məzunları, 9 nəfəri isə kənardan gələn mütəxəssislərdir.

İnsan resursları şöbəsinin müdiri Qumral Qədimova çıxış edərək fakültələr üzrə vakant vəzifələrin tutulmasının nəticələri barədə məlumat verib.

İşə yeni qəbul edilən əməkdaşlardan Günel Əsgərli, Nübar İsazadə, Qumru Balaxanova və digərləri çıxış edərək müsabiqənin şəffaf və obyektiv keçirilməsinə, eləcə də gənc mütəxəssislərə göstərdiyi diqqət və qayğıya görə rektor Cəfər Cəfərova təşəkkür ediblər.

Görüşə yekun vuran rektor Cəfər Cəfərov işə yeni qəbul edilən əməkdaşları təbrik edərək onlara uğurlar arzulayıb. Eyni zamanda onlara məsuliyyətlə çalışmağı, əmək intizamına riayət etməyi, işi çevik, səmərəli qurmağı və bütövlükdə ADPU-da aparılan islahatların, yeniliklərin aparıcı qüvvəsi olmağı tövsiyə edib.

# Elmi Şuranın iclası

**Dekabrın 22-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Elmi Şurasının iclası keçirilib. Öncə Elmi Şura üzvləri ADPU-nun professor-müəllim heyətinin elmi əsərləri ilə tanış olublar. ADPU-nun rektoru, Elmi Şuranın sədri, professor Cəfər Cəfərov iclası giriş sözü ilə açaraq bildirib ki, iclasın gündəliyinə ADPU-nun 2017- ci il üçün elmi və elmi-təşkilati fəaliyyəti haqqında, ADPU-nun Şamaxı Filialının fəaliyyəti haqqında, 2017-2018-ci tədris ilinin payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti haqqında və cari məsələlər daxildir.**

**İclasın gündəliyi səsə qoyularaq qəbul edilib.**

Gündəliyə keçməzdən əvvəl rektor Cəfər Cəfərov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 18 noyabr 2017-ci il tarixli sərəncamları ilə universitetin 6 nəfər əməkdaşı təltif təqdim edib. Belə ki, ADPU-nun rektorunun müşaviri, professor Vilayət Əliyev ölkənin ictimai-siyasi həyatında fəal iştirakına görə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə, professor Nəbi Əsgərov, professor Ədalət Fərəcov, dosent Heydər Hüseynov "Tərəqqi" medalı ilə təltif ediliblər,dosent Allahverdi Hacıyev isə təhsilin inkişafındakı xidmətlərinə görə "Əməkdar müəllim" fəxri adına layiq görülüb. Rektor təltifləri təqdim edərək universitet əməkdaşlarının fəaliyyətinə verilən yüksək qiymətə görə ölkə rəhbərliyinə təşəkkür edib.

Qeyd edək ki, bunlarla yanaşı, rektor Cəfər Cəfərova İMC Krems Tətbiqi Elmlər Universitetinin Elmi Şurasının 21 noyabr 2017-ci il tarixli iclasının qərarına əsasən Fəxri Əməkdaş adı, Beynəlxalq əlaqələr üzrə prorektor Nigar Abbaszadəyə isə həmin universitetin Elmi Şurasının 29 noyabr 2017-ci il tarixli iclasının qərarı ilə Fəxri Professor adı verilib. Həmçinin professor Mahmud Allahmanlı TÜRKSOY tərəfindən "Vaqif" medalı ilə təltif edilib, filologiya üzrə elmlər doktoru Həcər Hüseynova isə Prezidentin xüsusi təqaüdünə layiq görülüb.

Rektor iclasda Təhsil Nazirliyinin müvafiq əmri ilə universitetə Tədris işləri üzrə yeni təyin edilmiş prorektor, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Eldar Aslanovu Şura üzvlərinə təqdim edib və ona uğurlar arzulayıb.

İclasda universitet əməkdaşlarının yanvar ayının 1-dən əmək haqlarının 10 faiz artırılması barədə məlumat verilib.

Elmi işlər üzrə prorektor, professor Asəf Zamanov ADPU-nun 2017- ci il üçün elmi və elmi-təşkilati fəaliyyəti barədə hesabatı diqqətə çatdırıb. Professor Asəf Zamanov qeyd edib ki, yalnız təhsil dünyanı dəyişməyə qadirdir və müasir cəmiyyətin inkişafı, ilk növbədə, keyfiyyətli təhsildən asılıdır. Təsadüfi deyil ki, 2017-ci il təhsildə keyfiyyət ilidir. Təhsilin keyfiyyətini şərtləndirən əsas amillərdən biri isə tədris prosesinin elmi təminatıdır. Məhz bu səbəbdən 2017-cı ildə ADPU-nun əsas fəaliyyət istiqamətlərindən biri də təhsil sahəsində aparılan elmi araşdırmalar, o cümlədən tədris prosesində innovativ metodikaların tətbiqi imkanlarının tədqiqi, elmi, elmi-metodiki və elmi-pedaqoji nailiyyətlərin ümumiləşdirilməsi və yayılması, nəticələrinin tədris prosesində tətbiqi, elm və təhsil sahəsində beynəlxalq təcrübə mübadiləsinin aparılması və s. olmuşdur. Son illər inkişaf etmiş dünya dövlətlərində elm və təhsilin bir-biri ilə əlaqələndirilməsinə və hər iki sahənin innovasiyaların tətbiqi yolu ilə paralel şəkildə inkişaf etdirilməsinə xüsusi diqqət verilir. Elm-təhsil-innovasiya üçbucağının eyni bir müstəviyə gətirilməsi və balanslı şəkildə inkişaf etdirilməsi, o cümlədən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi məqsədilə son illər ADPU-da bir sıra islahatlar aparılır. 2017-ci ildə belə islahatlar daha geniş vüsət almışdır.

Hesabatda ADPU-nun elmi potensialı, struktur bölmələrinin yaradılması və strukturun optimallaşdırılması, elmdə və təhsildə innovasiyaların tətbiqi, elm və təhsilin əlaqələndirilməsi, hər iki istiqamətin balanslı şəkildə inkişaf etdirilməsi, elmi-tədqiqatların və tədris prosesinin maddi-



texniki və metodiki təminatının gücləndirilməsi, perspektivli gənclərin və məzunların işə cəlb olunması yolu ilə insan resurslarının gəncləşdirilməsi və keyfiyyətinin yüksəldilməsi, keyfiyyətin təminatı və idarə olunması sisteminin yaradılması,professor-müəllim heyətinin və elmi işçilərin fəaliyyətinin müxtəlif proqramlar vasitəsilə stimullaşdırılması və maddi rifah halının yüksəldilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi, beynəlxalq və regional əməkdaşlığın inkişaf etdirilməsi, xarici və Azərbaycan universitetlərinin alimlərinin ADPU-nun elmi seminarlarında iştirakının təmin edilməsi, elmi-tədqiqat və tədris prosesində gənclərin iştirakının və rolunun artırılması, respublikanın və xarici ölkələrin aparıcı elmi təşkilatları və ali təhsil müəssisələri ilə elm və təhsil sahəsində əməkdaşlığa dair beynəlxalq və regional səviyyəli müqavilə və memorandumların imzalanması, AMEA ilə elmi və elmi-təşkilati əlaqələrin inkişaf etdirilməsi, patent və lisenziya fəaliyyətinin təşkili, universitetdə respublika və beynəlxalq miqyaslı elmi konfransların təşkili və digər vacib istiqamətlərdə həyata keçirilən səmərəli məqsədyönlü əməli fəaliyyət öz əksini tapıb. Professor A.Zamanov çıxışının sonunda universitetdə elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi, universitetin infrastrukturunun və insan resurslarının inkişaf etdirilməsi və müasirləşdirilməsi üçün təkliflərlə çıxış edib.

Elmi Şura professor A.Zamanovun hesabatını qəbul edib.

ADPU-nun Şamaxı Filialının fəaliyyəti haqqında filialın direktoru, dosent Tünzalə Yusifova çıxış edib. Bildirib ki, filialda 5 ixtisas üzrə 529 nəfər tələbə təhsil alır. Filialda Pedaqoji fakültə və fakültənin tərkibində üç kafedra- Təbiət və pedaqoji elmlər kafedrası, Humanitar və xüsusi fənlər kafedrası, Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrası fəaliyyət göstərir. Filialın əməkdaşları elmi yaradıcılığa xüsusi diqqət yetirir, respublika və beynəlxalq səviyyəli konfranslarda, simpoziumlarda müxtəlif səpgidə elmi məqalələr və tezislərlə çıxış edirlər. Filialda vaxtaşırı olaraq elmi-praktik konfranslar, dəyirmi masalar, elmi seminarlar təşkil olunur. 17-18 may 2017-ci il tarixində filialda III Beynəlxalq Həmzə Nigari Türk Dünyası Mədəni İrsi Simpoziumunun keçirilməsini filialın elmi fəaliyyətinin mühüm hissəsi kimi qeyd etmək olar. Simpoziumun keçirliməsinə ADPU-nun rektoru, professor Cəfər Cəfərov yaxından diqqət və qayğı göstərib. Simpoziumda Türkiyədən 22, İtaliyadan 2, Özbəkistandan 1, Makedoniyadan 1, Qazaxıstandan 1 nəfər tədqiqatçı alim, eləcə də akademiklər İsa Həbibbəyli, Muxtar İmanov, Teymur Kərimli iştirak ediblər. Ümumilikdə simpoziumda 120 nəfər yerli, 18 nəfər xarici qonaq məqalə ilə çıxış edib, 100 nəfərdən çox qonaq isə dinləyici qismində iştirak edib. Beynəlxalq səviyyəli bu simpoziumda filial əməkdaşlarından 25 nəfəri elmi məqalə və tezislərlə çıxış ediblər. Tələbə Elmi Cəmiyyəti (TEC) elmi-təşkilati tədbirlərin həyata keçirilməsində filialın ümumi işinə köməklik göstərir. TEC 500 nəfərə qədər tələbəni öz ətrafında birləşdirir. Tələbə Gənclər Təşkilatı (TGT) filialda, eləcə də rayonda keçirilən bütün mədəni-kütləvi tədbirlərdə fəal iştirak edir. Eyni zamanda vaxtaşırı olaraq tələbələrlə birlikdə Heydər Əliyev irsinin öyrənilməsi ilə bağlı Şamaxı rayon mərkəzində yerləşən Heydər Əliyev Mərkəzi ziyarət olunur, rayonun tarixi baxımından əhəmiyyətli olan abidə və muzeylərinə ekskursiyalar təşkil edilir.

Qarşıdan payız semestrinin imtahan sessiyası gəlir. Bu il də imtahan sessiyasına ciddi hazırlıq işləri aparılır. İmtahan sualları vaxtında hazırlanıb, tələbələrə çatdırlıb və biletlər tərtib olunub. Tələbələrin biliyinin düzgün qiymətləndirilməsi və şəffaflığın qorunması üçün sessiya zamanı filialda Apelyasiya Komissiyası və İmtahan Qərargahı fəaliyyət göstərir. Sessiya dövründə valideynlər və ictimaiyyətin nümayəndələri üçün hər gün "Açıq qapı günü" keçirilir.

Elmi Şura dosent T.Yusifovanın hesabatını qəbul edib.

İclasda həmçinin ADPU-nun Şamaxı Filialında aparılan monitorinqin nəticələri barədə məlumat verilib. Məlumatda filialın idarəetmə, tədris və elmi-tədqiqat fəaliyyəti təhlil edilib, mövcud çatızmazlıqların aradan qaldırılması və qarşıda duran vəzifələrin həyata keçirilməsi üçün təkliflər öz əksini tapıb.

Tədrisin İdarə Olunması və Tədris Texnologiyaları Mərkəzinin direktoru, dosent Sənan Əliyev 2017-2018-ci tədris ilinin payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti haqqında məlumat verib. Bildirib ki, payız semestrinin imtahan sessiyasına hazırlıq barədə ADPU-nun rektoru müvafiq əmr imzalayıb. Əyani təhsil forması üzrə tədrisi təşkil olunan bütün ixtisasların tədris planlarına və tədris qrafikinə müvafiq olaraq payız semestrinin nəzəri təlimi dekabrın 28-də başa çatacaqdır. Payız semestrinin imtahan sessiyasının əyani təhsil forması üzrə yanvarın 5-dən fevralın 1-dək, qiyabi təhsil forması üzrə isə yanvarın 5-dən 18-dək keçirilməsi nəzərdə tutulub. İmtahan sessiyasında bütün imtahanlar, təhsilin bakalavriat səviyyəsində ixtisasların tədris planında nəzərdə tutlmuş fənlər üzrə I və II tədris ilinin tələbələri üçün yazılı formada, III və IV tədris ili tələbələri üçün isə VTS-TEST sistemi və yazılı formada təşkil olunacaq. Magistratura təhsil səviyyəsində magistrantların imtahanları yazılı şəkildə aparılacaq. Hər iki təhsil səviyyələrinin əyani və qiyabi təhsil formaları üzrə imtahanlar İmtahan, monitorinq və qiymətləndirmə şöbəsi tərəfindən tərtib edilmiş və təsdiqlənmiş xüsusi cədvəl əsasında təşkil olunacaq. İmtahan cədvəlində hər bir imtahana hazırlaşmaq üçün tələbələrə 2 gündən az olmayaraq vaxt ayrılacaq. İmtahanların əvvəlcədən təyin edilmiş auditoriyalarda keçirilməsi nəzərdə tutulub. İmtahan cədvəllərinin professor-müəllim heyətinə və tələbələrə vax□tında çatdırılması məqsədilə fakültələrdə elan edilməklə yanaşı, universitetin internet saytında (□□www.adpu.edu.az <http://www.adpu.edu.az>) yer□ləşdiriləcək. Nəzəri təlimlərin sonuna kimi təhsilin bakalavriat səviyyəsinin I və II tədris ili tələbələri üçün və magistratura səviyyələrində nəzərdə tutulmuş sonuncu kollokviumların dekabrın 25-dək keçirilməsi və bütün ixtisaslarda sərbəst iş mövzularının qiymətləndirilməsinin başa çatması nəzərdə tutulub. Bu təd□ris ilində unversitet üzrə bütün ixtisasların III və IV tədris ili tələbələrinin sonun□cu kollokviumları VTS-TEST sistemi ilə dekabrın 4-dən 15-dək keçirilib. Kollokviumların keçirilməsi II növbəli təşkil edilib. Kollokviumların obyektiv, şəffaf və mütəşəkkil keçirilməsi üçün bütün zəruri tədbirlər görülüb. Tərtib edilən testlərdə yol verilən nöqsanların vaxtında aradan qaldırılması, imtahanların gedişi ilə bağlı daxil olan ərizə və şikayətlərə vaxtında baxılması təmin edilib. Payız imtahan sessiyasının yekunlarının, semestr ərzində keçirilmiş kollokviumların nəticələri ilə imtahan nəticələri arasındakı müntənasibliyin, semestr dövründə qarşıya çıxan problemlərin, imtahan sessiyasından əldə edilən nəticələrlə bağlı müzakirələrin fakül□tə Elmi Şuralarında və kafedra iclaslarında aparılması struktur bölmələrinə tövsiyə olunub. Kafedralar bakalavriat və magistratura təhsil səviyyələrinin əyani və qiyabi təhsil forması üzrə bütün fənlərin imtahan suallarını tərtib edib tələbələrə vaxtında çatdırıblar. İmtahanlarda tələbələrin biliyinin qiymətləndirilməsi üçün tərtib edilən bilet□lər hazırlanarkən bakalvriat təhsil səviyyəsinin I və II tədris illəri üçün yazılı, III-IV tədris illəri üçün isə test və yazılı, magistratura təhsil səviyyəsinin əyani və qiyabi təhsil formaları üzrə yazılı aparılacağı nəzərə alınıb. Kafedralar fənlər üzrə imtahan biletlərini təlimata uyğun olaraq müvafiq sayda tərtib edib İmtahan, monitorinq və qiymətləndirmə şöbəsinə təqdim ediblər. Bütün fakültələrdə payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti müzakirə edilərək yekunlaşdırılıb. İmtahan sessiyası müddətində ictimai nəzarəti təmin etmək məq□sə□dilə ictimaiyyətin nümayəndələrinin sessiyanın gedişini müşahidə edə bilmələri üçün zəruri şəraitin yaradılması da nəzərdə tutulub. İmtahan sessiyasının operativliyini təmin etmək məqsədilə fakültələr üzrə koordinator rəhbərləri və koordinatorlar təyin edilib. İmtahan sessiyasının nor□ma□tiv-□hüquqi sənədlərə uyğun keçirilməsi və imtahan prosesinin mütə□şə□killiyini təmin etmək məqsə□dilə Apelyasiya Komissiyası, İmtahan Qərargahı, İmtahan işinin təşkili üzrə İşçi Qrupu yaradılıb. Qeyd edək ki, unversitet üzrə təhsilin bakalavriat səviyyəsi üzrə 367 qrupda 565 fəndən (qiyabi 12 qrupda 33 fənn, əyani 355 qrupda 532 fənn) imtahan keçiriləcək. Magistratura səviyyəsində isə 52 qrupda təqribən 312 fəndən imtahan keçiriləcək. Yekun etibarilə 419 qrupda 877 fəndən imtahanların keçirilməsi nəzərdə tutulub.

Elmi Şura dosent S.Əliyevin hesabatını qəbul edib.

Elmi katib, siyasi elmlər üzrə fəlsəfə doktoru Asif Axundov cari məsələlər barədə məlumat verib. Cari məsələlər müzakirə edilib və müvafiq qərarlar qəbul olunub.

Sonda rektor Cəfər Cəfərov Elmi Şura üzvlərini 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib və uğurlar arzulayıb.

# "Bir olaq, həmrəy olaq!" adlı tədbir

Dekabrın 21-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı və Bakı şəhərində yerləşən dövlət ali təhsil müəssisələrinin əməkdaşlığı ilə 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş "Bir olaq, həmrəy olaq!" adlı tədbir keçirilib. Tədbirdə ADPU-nun rəhbərliyi, digər universitetlərin rektor və prorektorları, fakültə dekanları, dekan müavinləri, TGT nümayəndələri və ADPU-nun tələbələri iştirak ediblər.

Tədbir Musiqi, təsviri incəsənət, fiziki tərbiyə və çağırışaqədər hazırlıq fakültəsinin birləşmiş xorunun ifasında Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə açıq elan olunub. Tədbirdə "Bayraq" kompozisiyası, "Biz mehriban ailəyik" səhnəsi, "Hacı Zeynalabdin Tağıyev Almaniyada" səhnəciyi nümayiş olunub. Bundan əlavə, "Sarı gəlin", "Saçlarını yol gətir", "Qarabağ şikəstəsi", "Aləmdə səsim var mənim" qəzəli ifa olunub. Sonra Xalq artisti Fidan Hacıyevanın ifasında Müslüm Maqomayevin "Azərbaycan" musiqisi tədbir iştirakçılarına xoş anlar yaşadıb. Universitetimizin tələbələrinin ifasında "Turac" və "Sarı gəlin" rəqsləri ifa olunub, şagird Nəzrin



Cavadlının ifasında "Avar" rəqsi nümayiş edilib.

Tərbiyə işləri üzrə prorektor, professor Fikrət Rzayev çıxış edərək tədbirin təşkilatçılarına təşəkkür edib və tələbə-gəncləri 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il



münasibətilə təbrik edib. Daha sonra Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) icraçı direktoru Nurxan Babayev çıxış edərək ADPU TGT-nin hər zaman fərqləndiyini vurğulayıb və tələbələrə uğurlar arzulayıb.

# “Türk mənşəli sözlər lüğəti” kitabının təqdimatı

Dekabrın 26-da Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) İsmayıl Məmmədli, Ənvər Abbasov və Hüseyn Mirzəyevin müəllifi olduğu “Türk mənşəli sözlər lüğəti” kitabının təqdimatı keçirilib. Kitabın hazırlanmasında əsas məqsəd Azərbaycan dilinin türkmənşəli sözlərlə nə dərəcədə zəngin olduğunu oxucu kütləsinə çatdırmaq və Azərbaycan dilinə dair məktəb kursunun səmərəli tədris olunmasına dəstək verməkdir.



Tədbiri ADPU-nun rektoru, professor Cəfər Cəfərov açıb. Rektor yeni lüğətin tədris sistemindəki yerindən və əhəmiyyətindən danışıb və bu işdə əməyi keçən hər kəsə təşəkkür edib.

Filologiya üzrə elmlər doktoru, professor Buludxan Xəlilov kitabın XXI əsr lüğətşünaslığı üçün çox əhəmiyyətli olduğunu diqqətə çatdırıb: “Bu gün sizə təqdim etdiyimiz “Türk mənşəli sözlər lüğəti” bütün normalara cavab verir. Hər bir dilin lüğət tərkibinin zəngin olması onun müasir dilçiliklə ayaqlaşdığından xəbər verir. Yaşadığımız əsrdə müxtəlif növ lüğətlərə tələbat artır. Dilimizin lüğət tərkibinə hər sahədən çoxsaylı alınma sözlər daxil olur. Hələ bu alınma sözlərin 44 minə yaxını türkmənşəlidir. Bütün bu sözlər dilimizin tərkibinə daxil edilərkən Azərbaycan dilinin orfoqrafiya normalarına, habelə bir sıra digər linqivistik və ensiklopedik lüğətlərə istinad edilib. Lüğət eyni zamanda orta məktəbin tədris prosesi üçün də nəzərdə tutulub”.

Millət vəkili Aydın Mirzəzadə lüğət haqqında fikirlərini bölüşüb: “Bu kitab söz ehtiyatına görə olduqca faydalıdır. Burada 50-dən çox lüğət növünə daxil olan və olmayan bir sıra yeni sözlər var. Kitabın quruluşu, adı, izahı olduqca uğurlu seçilib. İlk baxışda insana güvən aşılayır. Fikrimcə, bu lüğət Azərbaycan dilçiliyində əsrlərlə qalacaq və istinad ediləcək bir kitabdır”.

Müəlliflərdən Azərbaycan Respublikası Təhsil İnstitutunun direktor müavini, pedaqoqika üzrə fəlsəfə doktoru, Əməkdar müəllim Ənvər Abbasov lüğətə əlavə edilən yeni sözlərdən danışıb: “Bu gün orta məktəb şagirdlərinin ən böyük problemi söz bazalarının azlığı, ifadələrdən yerində istifadə edə bilməmələridir. Eyni zamanda bu kitab şagirdlərdə dilə böyük məhəbbət, maraq yaradacaq. Bu lüğətdə 44 mindən çox türkmənşəli söz var. Gələcəkdə bu lüğətin daha da təkmilləşdirilməsini planlaşdırırıq. Dilimizin dərindən öyrənilməsi üçün bu kimi mənbələrin sayının artırılması önəmlidir”.

Xalq şairi Sabir Rüstəmxanlı isə kitabı “Divani lüğəti-it türk” əsəri ilə müqayisə edib: “Bu günə qədər sonsuz sayda lüğətlər hazırlanıb. Bu elə də asan məsələ deyil. Bu lüğətin hazırlanması son dərəcə önəmlidir. Türklər tərkibində 613 min söz olan lüğət hazırlayıb. Ümumi türk xalqlarının dillərini əhatə edəcək 1 milyona yaxın söz var. Bura altayların, başqırların və digərlərinin sözləri daxildir”.

Digər müəllif, professor İsmayıl Məmmədli isə bildirib ki, dilimizin zənginliyini ortaya çıxarmaq üçün dilçilərimiz bu kimi təşəbbüslərə tez-tez yer verməlidirlər: “Dilçilər arasında kimsə bu təşəbbüsü etməli idi və düşündüm ki, bunu biz edək. Mən bu kitabı əməkdaşlarımızla birlikdə hazırlamışam. Çox geniş araşdırmalar aparmışıq. Məsələn, uzun illər bizim bildiyimiz “tüfəng”, “pələng” kimi sözlər fars sözləri kimi bilinir. Əslində isə bunun dərinliyində çox məqamlar var. Təəssüf ki, bu gün Azərbaycanın etimoloji lüğəti çap olunmayıb. Türklər çoxsaylı lüğətlər çap etdirir və hər birində yeni sözlər tapmaq olar. Bu kitabın ardınca Cəfər Cabbarlının lüğətini hazırlamışıq. Ümumilikdə Azərbaycan dili çox zəngin tərkibə malikdir. Sadəcə, əsrlər keçir və bəzi sözlər unudulur. Bu sözlərin unudulmaması üçün gərək biz özümüz çalışaq. Həmin sözlərin mənalarını yeni nəsil bilməyə bilər. Buna görə, gələcək nəsillərin də hazırkı sözləri unutmamaları üçün biz müəllimlər, pedaqoqlar öz dilimizi mükəmməl bilməliyik”.

Elmi işlər üzrə prorektor, professor Asəf Zamanov, Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının müdiri, professor Əzizxan Tanrıverdiyev çıxış edərək “Türk mənşəli sözlər lüğəti” kitabını yüksək qiymətləndiriblər.

# Fizika və texnologiya fakültəsində 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə tədbir

Dekabrın 26-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Fizika və texnologiya fakültəsində 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə tədbir keçirilib. Tədbirdə ADPU-nun rektoru, professor Cəfər Cəfərov, Tədris işləri üzrə prorektoru, dosent Eldar Aslanov, Tərbiyə işləri üzrə prorektoru, professor Fikrət Rzayev, Tədrisin İdarə Olunması və Tədris Texnologiyaları Mərkəzinin direktoru, dosent Sənan Əliyev, İnzibati-təsərrüfat işləri üzrə prorektoru Ümid Mehdiyev iştirak ediblər. Tədbirdə fakültənin müəllim və tələbələri də yaxından iştirak ediblər.



Tədbirdən öncə “Texnologiya müəllimliyi” ixtisasında təhsil alan tələbələrin əl işlərindən ibarət sərgi nümayiş olunub. Sərgi ilə həmçinin Milli Məclisin deputatı Aydın Mirzəzadə və Xalq şairi Sabir Rüstəmxanlı da tanış olublar. Sərgidə nümayiş olunan eksponantlar hamının marağına səbəb olub. Sərgidən sonra bayram konserti keçirilib. Çox maraqlı və rəngarəng keçən tədbirdə tələbələrin ifasında rəqslər, mahnılar və kafedraların hazırladıqları təqdimatlar alqışlarla qarşılanıb. Tədbirdə ADPU-nun prorektorları fakültə Tələbə Elmi Cəmiyyətinin (TEC) keçirdiyi “Gələcəyə addım” I Elmi konfransının qaliblərinə diplomları təqdim ediblər.



Sonda Fizika və texnologiya fakültəsinin dekanı, fizika üzrə fəlsəfə doktoru Arzu Daşdəmirov fakültədə tətbiq edilən yeniliklərə daha birinin əlavə olunduğunu bildirərək belə tədbirlərin ənənəyə çevriləcəyini vurğulayıb, qonaqlara və tədbirin təşkilindəki fəaliyyətinə görə fakültə TEC-nə öz təşəkkürünü bildirib.

# “Beynəlxalq davamlı turizm ili”nin yekunlarına həsr olunmuş konfrans

Dekabrın 27-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Birləşmiş Millətlər Təşkilatının (BMT) Dünya Turizm Təşkilatı Baş Assambleyasının 2017-ci ili “Beynəlxalq davamlı turizm ili” elan etməsinin yekunlarına həsr olunmuş “Turizmin sinergetikası: bioloji və sosial inkişaf tələbələrin gözü ilə” mövzusunda konfrans keçirilib. Tədbirdə ADPU-nun rektoru, professor Cəfər Cəfərov, Tədris işləri üzrə prorektoru, dosent Eldar Aslanov, Elmi işlər üzrə prorektoru, professor Asəf Zamanov, Tədrisin İdarə Olunması və Tədris Texnologiyaları Mərkəzinin direktoru, dosent Sənan Əliyev, İnzibati-təsərrüfat işləri üzrə prorektoru Ümid Mehdiyev, fakültə dekanları, kafedra müdirləri, struktur bölmələrinin rəhbərləri, filial nümayəndələri və tələbələr iştirak ediblər.



Konfransı giriş sözü ilə Elm və innovasiyalar şöbəsinin müdiri, dosent Yusif Alıyev açaraq 2017-ci ilin dünyada “Beynəlxalq davamlı turizm ili” elan edilməsinin zəruriliyindən, qarşıya qoyulan vəzifələrdən və bu vəzifələrin həllinə nail olmaq üçün görülən işlərdən danışıb. Bildirib ki, BMT-nin bu qətnaməni qəbul etməsindən 4 il öncə, 2011-ci ildə Azərbaycan Respublikasında 2011-ci ilin “Turizm ili” elan edilməsi ilə bağlı Tədbirlər Planının hazırlanmasına görə Azərbaycan Respublikası Prezidentinin 20 iyul tarixli Sərəncamı olmuşdur. Bu da onu göstərir ki, Azərbaycan hökuməti bu istiqamətdə əvvəlcədən uğurlu fəaliyyətə başlayıb. Dosent Y.Alıyev qeyd edib ki, “Beynəlxalq davamlı turizm ili” çərçivəsində ADPU Təhsil Nazirliyinin bir qurumu olaraq böyük işlər görüb. ADPU-nun filiallarının yerləşdiyi Quba, Şamaxı, Şəki, Ağcabədi və Cəlilabad rayonlarının mövcud turizm imkanları filial tələbələri ilə birgə öyrənilib, ətraf aləmə ekskursiyalar təşkil edilib. Filiallar arasında ”Bölgəmizin turizm potensialı” foto-müsabiqəsi elan edilib və tələbələrin canlı təbiətdən çəkdikləri 396 foto arasından 3 foto seçilib. Həmin fotolar I, II və III yerlər üzrə diplomla mükafatlandırılmağa təqdim ediliblər.



Konfransda Təhsil Nazirliyinin 19 may 2017-ci il tarixli əmri ilə 2017-ci ilin ”İnkişaf naminə beynəlxalq turizm ili” elan edilməsinin icrası ilə əlaqədar ADPU-da görülən işlər barədə Elm və innovasiyalar şöbəsinin baş mütəxəssisi Dilguşə Süleymanova təqdimatla çıxış edib.

Sonra ADPU-nun Şamaxı Filialının tələbəsi Şəlalə Seyidovanın, Ağcabədi Filialının tələbəsi Eltac Fərzəliyevin, Şəki Filialının tələbəsi Vüsalə Məmmədağayevanın, Quba Filialının tələbəsi Azər Zahirovun və Cəlilabad Filialının tələbəsi Aysun Babayevanın Şamaxı, Ağcabədi, Şəki, Quba və Cəlilabad rayonlarının turizm potensialından bəhs edən təqdimatları dinlənilib. Təqdimatlarda bölgələrin turizm potensialı, ilk növbədə, bölgələrin əlverişli təbii-coğrafi mövqedə yerləşməsi, zəngin flora və faunası, gözəl təbiəti və eyni zamanda son illər ayrı-ayrı bölgələrdə müasir tələblərə cavab verən istirahət mərkəzlərinin, hotellərin inşası, yol-nəqliyyat infrastrukturunun yaradılması, həm xarici, həm də yerli turistlərin bölgələrə marağının artması ön plana çəkilib.

Təqdimatlardan sonra yekun nitqi ilə çıxış edən rektor Cəfər Cəfərov tədbirin əhəmiyyətindən danışıb. Tələbələrin bölgələrin turizm imkanlarının öyrənilməsində böyük potensialının olduğunu bildirib. Azərbaycanın turizm imkanlarının genişliyindən söz açan professor Cəfər Cəfərov qeyd edib ki, davamlı turizm iqtisadiyyatın inkişafına böyük töhfələr verir. ADPU-da bu layihə çərçivəsində il ərzində görülən işləri qənaətbəxş hesab edən rektor bildirib ki, bu tədbirlərin həm də tələbələrin formalaşmasında böyük önəmi vardır.

Tədbirin sonunda ADPU-nun filial tələbələri arasında ”Bölgəmizin turizm potensialı” mövzusunda keçirilmiş foto-müsabiqəyə təqdim edilmiş fotoşəkillərin müəllifləri arasından I, II, III yerin qalibləri diplomla təltif olunublar. Həmçinin konfransda təqdimatla çıxış edənlərə sertifikatlar təqdim edilib, xatirə şəkilləri çəkdirilib.

# Riyaziyyat və informatika fakültəsinin ümumi iclası



Dekabrın 28-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Riyaziyyat və informatika fakültəsinin ümumi iclası keçirilib. İclasda Riyaziyyat və informatika fakültəsinin professor-müəllim heyəti iştirak edib. İclasda universitetin rektoru, professor Cəfər Cəfərovun 8, 15 və 22 dekabr tarixlərində “Azərbaycan müəllimi” qəzetində dərc olunmuş müsahibəsi müzakirə olunub.



Tədbirdə Riyaziyyat və informatika fakültəsinin dekanı, riyaziyyat üzrə elmlər doktoru, dosent Maqsud Nəcəfov müsahibənin geniş təhlilini verib. Dosent M.Nəcəfov müsahibənin yüksək elmi səviyyəyə malik olduğunu və universitetin kollektivi üçün geniş əməli fəaliyyət proqramı xarakteri daşıdığını bildirib. Sonra Riyaziyyat və onun tədrisi metodikası kafedrasının müdiri, professor Azadaxan Adıgözəlov və Riyazi analiz kafedrasının müdiri, dosent Bəhram Əliyev çıxış ediblər. Çıxışlarda professor Cəfər Cəfərovun müsahibəsində irəli sürülən vəzifələr, qarşıya qoyulan məqsədlərlə bağlı fakültə əməkdaşlarının üzərinə düşən vəzifələr barədə fikirlər səsləndirilib.

Sonda dekan M.Nəcəfov fakültə əməkdaşlarını məqalədə göstərilən vəzifələri uğurla həyata keçirmək üçün əzmlə fəaliyyət göstərməyə çağırıb.

# ADPU-nun Cəlilabad Filialında elmi seminar

Dekabrın 15-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Cəlilabad Filialında “Cəlilabad toponimləri və onun təsnifatı” mövzusunda elmi seminar keçirilib. Seminarda filialın müəllim və tələbə heyəti iştirak edib. Seminarı giriş sözü ilə açan Tədris və elmi işlər üzrə direktor müavini Eyvaz Məmmədov iştirakçılara uğurlar arzulayıb.

Seminarda İxtisas fənləri kafedrasının baş müəllimi Mahmudağa Qasımov Cəlilabad toponimlərinin əmələ gəlməsi və təsnifi qaydaları haqqında məruzə ilə çıxış edib.

Sonra kafedranın müdiri, filologiya üzrə fəlsəfə doktoru Yədulla Dadaşlı Azərbaycan toponimikası və Cəlilabad toponimlərinin tədqiqində Mahmudağa Qasımovun xidmətlərindən danışıb. Filialın baş müəllimi Tofiq İsgəndərov Azərbaycan toponimikasının nailiyyətləri, Mahmudağa Qasımovun Cəlilabad toponimləri kitabı haqqında öz fikirlərini bölüşüb.

Seminar tələbələrin məruzə ətrafında çıxışları ilə yekunlaşıb.

# ADPU -nun Quba Filialında “ Gənclərin rabitəli nitqinin inkişaf etdirilməsi ” mövzusunda tədbir



Dekabrın 5-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Quba Filialında “Gənclərin rabitəli nitqinin inkişaf etdirilməsi” mövzusunda tədbir keçirilib. Tədbirdə filialın Ədəbiyyat və dillər kafedrasının müdiri, dosent Gülşən Ağabəy, tədris və elmi işlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru İsmayıl Mahmudov, tərbiyə işləri üzrə direktor müavini Aysel Şeydayeva, həmin kafedranın baş müəllimi Xudyar Daşdəmirov, Tələbə Elmi Cəmiyyətinin (TEC) sədri Türkanə Abışova və “İbtidai sinif müəllimliyi” ixtisasının IV tədris ili tələbələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan filialın tədris və elmi işlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru İsmayıl Mahmudov belə tədbirlərin gənclərimizin nitqinin, təfəkkürünün inkişafı, onların yaradıcı qabiliyyətlərinin üzə çıxarılması üçün əhəmiyyətindən bəhs edib. Sonra filialın Ədəbiyyat və dillər kafedrasının baş müəllimi Xudyar Daşdəmirov çıxış edib, müəllim üçün gözəl, rabitəli nitqə sahib olmağın əhəmiyyətindən, rabitəli nitqdə hər bir məzmunun özünəmüvafiq formada ifadə edilməsindən danışıb.

Tədbirdə tələbələr fəallıq göstəriblər. Belə ki, “İbtidai sinif müəllimliyi” ixtisasının IV tədris ili tələbəsi Emin Taha bütövlükdə məsnəvi formasında nəzmə çəkdiyi Xalq yazıçısı Ənvər Məmmədxanlının “Buz heykəl” hekayəsini səsləndirib. Ənvər Məmmədxanlının eyniadlı hekayəsi əsasında yazılmış “Buz heykəl” şeri tələbə və müəllimlərin xüsusi marağına səbəb olub. Sonda Emin Taha həmin əsərə görə mükafatlandırılıb.

# İbtidai təhsil fakültəsində elmi seminar

Dekabrın 27-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) İbtidai təhsil fakültəsinin İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasında növbəti elmi seminar keçirilib.



Elmi seminarda universitetin rektoru, professor Cəfər Cəfərovun "Azərbaycan müəllimi" qəzetində dərc olunmuş "Müsbət tendensiyaları inkişaf etdirmək cəmiyyətin işidir" müsahibəsi



müzakirə predmetinə çevrilib, müsahibədə irəli sürülən məsələlərlə bağlı kafedra əməkdaşlarının görəcəyi işlər müəyyənləşdirilib.

Eimi seminarda fakültənin dekanı, Əməkdar elm xadimi, professor Fərrux Rüstəmov "ADPU-nun rektoru, professor Cəfər Cəfərovun "Müsbət tendensiyaları inkişaf etdirmək cəmiyyətin işidir" adlı müsahibəsi və İbtidai təhsil fakültəsi əməkdaşlarının qarşısında duran vəzifələr" mövzusunda çıxış edib. Müsahibədə irəli sürülən məsələlərə diqqəti cəlb edən məruzəçi qeyd edib ki, professor Cəfər Cəfərov ADPU-ya rektor təyin olunduqdan sonra bu elm və təhsil məbədi öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoyub. Universitet həyatının bütün sahələrində inkişaf dönməz xarakter alıb. İnfrastrukturun yeniləşdirilməsi, ümumtəhsil məktəbləri və xarici ölkələrin pedaqoji kadr hazırlığını həyata keçirən ali məktəbləri ilə əlaqələrin genişləndirilməsi, yüksək bal toplayan tələbələrin universitetimizə cəlb edilməsi, müəllim hazırlığının nəzəri və praktiki problemləri ilə bağlı respublika və beynəlxalq səviyyəli konfransların təşkili, universitetdə nəşr olunan jurnalların elmi statusu və dövriliyinin təmini, şəffaf, sağlam və obyektiv təlisil mühitinin yaradılması, elmi seminarların keçirilməsi, hesabatlılığın formalaşdırılması istiqamətində uğurlu işlər həyata keçirilib və bu istiqamətli layihələr davam etdirilir. ADPU-da rəqabət mühiti yaradan, stimullaşdırma və karyera inkişafını nəzərdə tutan mühit yaranıb. Müəllimlərin, fakültə dekanlarının və kafedra müdirlərinin seçkisi universitetimizdə yeni təhsil mühitinin yaranmasına səbəb olub. Dövlətin ali pedaqoji təhsildən gözləntiləri böyükdür.Tələbə auditoriyası yeni nəfəs, yeni səs, yeni fəlsəfi yanaşma tələb edir.

Kafedra müdiri, dosent Yaqut Rzayeva, dosent Şahrza Ağayev, dosent Tamilla Vahabova, baş müəllim Çiçək Hümbətova çıxış edərək professor Cəfər Cəfərovun rəhbərliyi ilə universitetin təhsil və elm həyatında həyata keçirilən uğurlu layihələrdən və kafedrada əməkdaşlarının üzərinə düşən vəzifələrdən danışıblar.

# Tarix və coğrafiya fakültəsində Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə əlaqədar elmi seminar

Dekabrın 25-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Tarix və coğrafiya fakültəsinin Azərbaycan tarixi kafedrasının təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi əlaqədar elmi seminar keçirilib. Elmi seminarı giriş sözü ilə açan Azərbaycan tarixi kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Naibə Əhmədova ADPU-da həyata keçirilən böyük is-



lahatlardan bəhs edərək qeyd etdi ki, elmi seminarların keçirilməsi də universitetdə görülən işlərin bir hissəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə əlaqədar bu il mayın 16-da Sərəncam imzalayıb.



Dosent Naibə Əhmədova qeyd edib ki, XIX əsrdə A.A.Bakıxanov və M.F.Axundovla başlayan, C.Məmmədquluzadə, H.B.Zərdabi, M.Ə.Sabir, Ə.Hüseynzadə tərəfindən davam etdirilən milli məfkurə cəmiyyətin inkişafına mühüm təsir göstərdi. 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal Bəyannaməsi qəbul edildi. Azərbaycanın ilk parlamenti, hökuməti, dövlət aparatı təşkil edildi, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. 1991-ci il oktyabrın 18-də xalqımız özünün dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi. Azərbaycan Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun himnini, gerbini, üçrəngli bayrağını qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin sistemli şəkildə öyrənilməsi 30 yanvar 1998-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 80 illiyi ilə əlaqədar ulu öndər Heydər Əliyevin Sərəncamından sonra həyata keçirilmişdir. 2018-ci ildə belə tədbirlərin keçirilməsi daha mütəmadi xarakter alacaq.

Daha sonra AMEA-nın Fəlsəfə və Tarix İnstitutunun əməkdaşları: fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Faiq Ələkbərli, tarix üzrə fəlsəfə doktoru, dosent Kamran İsmayılov, tarix üzrə fəlsəfə doktoru Hakim Qənbərli, Azərbaycan tarixi kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Elman Mirzəyev çıxış edərək "Azərbaycan Türkçülüyü"nün, "Azərbaycan Yurdu"nun təbii nəticəsi olan Azərbaycan Cümhuriyyətinin necə meydana çıxması, eyni zamanda yeni Türk dövlətinə məhz "Azərbaycan" adının verilməsinin səbəbləri və bu məsələdə milli ideoloq Məhəmməd Əmin Rəsulzadənin oynadığı rolu elmi əsaslarla izah etməklə yanaşı, onun sonrakı siyasi-tarixi, mənəvi-fəlsəfi həyatımızda oynadığı rolu da elmi əsaslarla dəyərləndirmişlər.

# Kimya və biologiya fakültəsinin Elmi Şurasının iclası



Dekabrın 19-da Kimya və biologiya fakültəsinin Elmi Şurasının iclası keçirilib. Fakültənin dekanı, Elmi Şuranın sədri, dosent Elnarə Mehbalıyeva gündəlikdə



olan məsələ - 2017-2018-ci tədris ilinin payız semestirində keçirilmiş kollokviumların nəticələri haqqında ətraflı məlumat verib. Dosent Elnarə Mehbalıyeva qeyd edib ki, müxtəlif tədris illəri üzrə kollokviumlar keçirilib və nəticələr qənaətbəxşdir. "Kimya müəllimliyi", "Kimya və biologiya müəllimliyi" ixtisaslarında III tədris ili üzrə tədris planına görə kollokvium olmamışdır.

Sonra kafedralarda 2017-ci ildə icra olunmuş elmi-tədqiqat işlərinin yekun hesabatı kafedra müdirlərinin- Biologiya və onun tədrisi metodikası kafedrasının müdiri, dosent Anaxanım Yusifova, İnsan və heyvan fiziologiyası kafedrasının müdiri, dosent Nizam Mehdizadə, Analitik və üzvi kimya kafedrasının müdiri, kimya elmləri doktoru Əli Zalov, Ümumi kimya və kimyanın tədrisi metodikası kafedrasının müdiri, kimya üzrə fəlsəfə doktoru Reyhan Ağayevanın çıxışları ilə Şura üzvlərinə çatdırılıb. Bildirilib ki, kafedra əməkdaşlarının 2017-ci ildə icra etdikləri elmi-tədqiqat işləri kafedralarda müzakirə olunub, Elmi hissəyə təhvil verilib.

Cari məsələlərdə fakültənin dekanı, dosent E.Mehbalıyevanın dərs saatlarının 80, yaxud 90 dəqiqə olması məlumatı müzakirə edilib, keyfiyyətli tədrisə nail olmaq və ciddi nizam-intizam yaratmaq məqsədilə dərslərin 80 dəqiqə olması yekdilliklə qərara alınıb.

Professor Zaur Hümbətovun "Bitki morfologiyası və anatomiyası" adlı dərsliyinin, dosent Nizami Əkbərov, dosent Məhsəti Mirzəyeva, baş müəllim Gülnarə Babayeva, baş müəllim Kəmalə İsgəndərova, müəllim Ülviyyə Baxşıyevanın "Üzvi sintez (sərbəst işlər, sual və tapşırıqlar)" adlı dərs vəsaitinin kitabxana üçün alınması, dosent Nizami Əkbərov, baş müəllim İsa Cəfərov, doktorant Xavər Əkbərova, kimya elmləri doktoru Əli Zalov, dosent Məhsəti Mirzəyeva, baş müəllim Kəmalə İsgəndərovanın "Üzvi kimyadan praktikum" adlı dərs vəsaitinin çapa təqdim olunması məsləhət bilinib.

# Məktəbəqədər təhsil, psixoloji xidmət və korreksiyaedici təlim fakültəsində satış-sərgi və tələbə elmi konfransı

Dekabrın 13-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Məktəbəqədər təhsil, psixoloji xidmət və korreksiyaedici təlim fakültəsində "Texnologiya və onun tədrisi metodikası" fənninin tədrisində tələbələrin hazırladıqları əl işlərinin satış-sərgisi və "Sağlam tələbə - sağlam nəsil" layihəsi çərçivəsində "Zərərli vərdişlərə yox deyək!" mövzusunda tələbə elmi konfransı keçirilib.





Tədbiri fakültənin dekanı, pedaqogika üzrə elmlər doktoru Şəhla Əliyeva giriş sözü ilə açıb. Tərbiyə işləri üzrə prorektor, professor Fikrət Rzayev belə tədbirlərin tələbələr üçün mühüm əhəmiyyət daşıdığını qeyd edib və iştirakçılara uğurlar arzulayıb.

Fakültənin sonuncu tədris ili, xüsusən də, 404-cü və 405-ci qrup tələbələrinin ehtiyacı olan tələbələrə kömək məqsədilə məşğələ və məşğələdənkənar vaxtlarda hazırladıqları müxtəlif əl işlərinin satış-sərgisinin keçirilməsi təşəbbüsü fakültə rəhbərliyi tərəfindən razılıqla qarşılanıb. Universitetin 4 nömrəli tədris binasının foyesində təşkil olunan satış-sərgi nəinki tələbələrin, həm də müəllimlərin böyük marağına səbəb olub. Satış-sərginin eksponatları tələbələrin yaradıcılıq işləri kimi iştirakçılar tərəfindən dəyərləndirilib. Satış-sərgidən toplanan vəsaitin tələbələrin təşəbbüsü ilə ehtiyacı olan tələbələrə verilməsi nəzərdə tutulub.

Satış - sərginin təşkilində Məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasının müəllimləri -baş müəllim Xədicə Məmmədovanın, müəllim Könül Şıxəliyevanın, həmçinin 404-cü və 405-ci qrup tələbələrinin böyük əməyi olub.

Tələbələrin hazırladıqları "Zərərli vərdişlərə yox deyək!" mövzusunda konfrans satış-sərginin davamı kimi iştirakçıların böyük diqqətinə və marağına səbəb olub. Məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasının təşəbbüsü ilə keçirilən bu konfransda dosent Həqiqət Hacıyevanın başçılığı ilə 202-ci qrupun tələbələri Zinyət Əliyevanın, Lamiyə İslamovanın "QİÇS xəstəliyi və ondan qorunma yolları" mövzusuna dair təqdimatları, 404-cü qrup tələbələrinin sağlam həyat tərzinə həsr olunmuş "Toyda hadisə" mövzusunda ifa etdikləri səhnəcik, 405-ci qrup tələbələrinin sağlamlığa dair müdriklərin hikmətli sözlərindən ibarət kompozisiyası, 216-cı qrup tələbələrinin hazırladıqları "Öyrən və sağlam yaşa!" adlı bukletlər iştirakçılar tərəfindən rəğbətlə qarşılanıb.

Məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasının müdiri, professor Müseyib İlyasov tədbirin əhəmiyyətini qeyd edib və təşkilatçılara razılığını bildirib.

Sonda fakültənin dekanı Ş.Əliyeva tədbirin gözləndiyindən də yüksək səviyyədə keçirildiyini vurğulayıb və iştirakçılara təşəkkür edib.

# ADPU-nun nəzdində ADPK-də ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir

Dekabrın 12-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) nəzdində Azərbaycan Dövlət Pedaqoji (ADPK) kollecində ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatının nümayəndələri, dəvət olunmuş qonaqlar, müəllim və tələbə heyəti iştirak ediblər. İlk öncə Azərbaycanın Dövlət Himni səsləndirilib.



Tədbiri giriş sözü ilə açan kollecin direktoru, hüquq üzrə fəlsəfə doktoru Qulu Novruzov tədbirin tərbiyəvi əhəmiyyətindən və Azərbaycanın böyük qurucusu ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindən danışıb.

YAP-ın Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov çıxış edərək Azərbaycanın müstəqilliyindən danışıb, Heydər Əliyevin böyük xidmətlərini xüsusi qeyd edib.

Qeyd edək ki, tədbirdə ADPK-nın müəllimlərindən Hümeyrə Nadirinin "Müasir Azərbaycan tarixinin yaradıcısı" və Gülnarə Sadıqovanın "Heydər Əliyev və Azərbaycan" mövzularında çıxışları dinlənilib.

Sonda tələbələrin ifasında ulu öndər Heydər Əliyevə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdirilib. Həmçinin siyasətçilərin Heydər Əliyev haqqında söylədikləri kəlamlar dinlənilib.

# ADPU-nun Heydər Əliyev Mərkəzində Filologiya fakültəsinin tələbələrinə seminar keçirildi

**Dekabrın 25-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) Səbail rayon təşkilatının "Pedaqoqlar" ərazi ilk təşkilatının Gənclər Birliyinin Filologiya fakültəsinin tələbələri üçün təşkil etdiyi seminar Azərbaycanın dövlətçiliyinin möhkəmləndirilməsində əvəzsiz xidmətləri olan ümummilli lider Heydər Əliyev, Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çoxşaxəli fəaliyyətinə həsr olunmuşdu. Tədbirdə ADPU-nun rəhbərliyi iştirak edib.**



Gənclər Birliyinin sədri Əhməd Ağababayev tədbirin universitet rəhbərliyinin müvafiq göstərişinə əsasən bütün fakültələr üzrə keçirildiyini diqqətə çatdıraraq seminarda çıxış edəcək Türk və Şərqi Avropa xalqlarının tarixi və tarixin tədrisi metodikası kafedrasının müəllimlərini təqdim etdi.

Türk və Şərqi Avropa xalqlarının tarixi və tarixin tədrisi metodikası kafedrasının professoru Mübariz Əmirov Azərbaycanın dövlətçilik tarixinin müxtəlif dövrlərindən bəhs etdi. Çıxışçı Azərbaycanın qurucusu və memarı olan Heydər Əliyevin həyatının maraqlı, yaddaqalan məqamlarından, Ulu Öndərin ölkəyə rəhbərliyinin birinci dövründə gördüyü quruculuq işlərindən, yüksək iqtisadi inkişafa zəmin yaradan kənd təsərrüfatı və sənaye sahələrində həyata keçirdiyi layihələrdən danışdı. Bununla yanaşı, Ulu Öndərin müstəqillik illərindəki çoxşaxəli fəaliyyətinin bəzi məqamlarına işıq salındı. Heydər Əliyevin ən böyük xidmətlərindən birinin ölkəni parçalanmaq təhlükəsindən xilas etməsi olduğu seminar iştirakçılarının diqqətinə çatdırıldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı balanslaşdırılmış siyasətdən söhbət açıldı. Məhz bunun nəticəsində bu gün Azərbaycanın dünyada tolerant, böyük nüfuzu olan ölkə kimi tanınması qeyd olundu.

Kafedranın baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Dəyanət Musayev Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövründən danışdı. Vurğulandı ki, 1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə başlanmış qurtuluş mübarizəsi özünün yeni - həlledici mərhələsinə qədəm qoydu, bütün Azərbaycanın qurtuluşu başlandı. Bu dövr məhiyyətcə Azərbaycanın dövlət müstəqilliyinin qorunub-saxlanması, möhkəmləndirilməsi uğrunda mübarizə və müstəqil Azərbaycanın qurulması dövrüdür. Çıxışçı iqtisadiyyatın yüksəlişinə təkan verən layihələrdən - Bakı-Tbilisi-Ceyhan Əsas İxrac neft Kəmərinin çəkilişi, Bakı-Supsa boru kəmərinin inşası, Şimal-Cənub nəqliyyat dəhlizi və s. bəhs etdi. Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin bütün sahələrdə başlanan islahatları uğurla davam etdirdiyi bildirildi.

Kafedranın baş müəllimi Səbinə Həziyeva Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətini şərh etdi. İlham Əliyev ulu öndər Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirir. Dövlət başçımızın rəhbərliyi ilə ölkədə keçirilən iqtisadi islahatların daha da sürətləndiyi bildirildi. İlham Əliyevin Avropa Şurasının Parlament Assambleyasında (AŞPA) Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin rəhbəri kimi fəaliyyəti, məqsədyönlü, qətiyyətli çıxışları Azərbaycanın Avropa məkanında nüfuzunun daha da artmasına güclü təsir göstərmişdir. Çıxışçı İlham Əliyevin Heydər Əliyevin gənclər siyasətinin uğurla həyata keçirilməsində misilsiz fədakarlıq göstərməsi, yorulmaz və gərgin əməyi sayəsində Azərbaycan idmanının yüksəklərə qalxması, dünyaya tanıdılması vurğuladı. Məhz möhtərəm Prezidentin həyata keçirdiyi islahatlar və məqsədyönlü xarici siyasət sayəsində Azərbaycan Cənubi Qafqazda lider dövlət olaraq qalmaqdadır.

Kafedranın baş müəllim, tarix üzrə fəlsəfə doktoru Taleh Cəfərov ümummilli lider Heydər Əliyevin tək Azərbaycan səviyyəsində deyil, keçmiş İttifaq səviyyəsində, hətta Qərb miqyasında tanınmış siyasi lider olduğunu qeyd etdi. Beynəlxalq səviyyədə düşünməyi və təhlillər aparmağı bacaran Heydər Əliyevin siyasətinin gücü siyasi uzaqgörənliyində, fitri istedadında, müdrikliyində, siyasi iradəsində, dərin zəkasında, milli maraqlara əsaslanmasında idi. Heydər Əliyev deyirdi: "Biz nazik sapın üstü ilə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun". Çıxışçı eyni zamanda Heydər Əliyevin 1969-1982-ci illərdəki ictimai-siyasi fəaliyyəti ilə bağlı bir çox məsələlərə də toxundu.

Seminarda çıxış edən Türk və Şərqi Avropa xalqlarının tarixi və tarixin tədrisi metodikası kafedrasının müdiri, dosent Rəcəb Əliyev Ulu Öndərin zəngin irsinin müxtəlif məqamlarını geniş şərh etdi.

Sonda ADPU-nun rektoru, professor Cəfər Cəfərov çıxış edərək Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafındakı xidmətlərindən, həyata keçirilmiş uğurlu siyasətdən geniş bəhs etdi. Möhtərəm Prezident İlham Əliyevin Azərbaycanın gələcək inkişafı, xalqın rifahının yüksəldilməsi istiqamətindəki yorulmaz fəaliyyətini yüksək qiymətləndirən rektor Ulu Öndərin müdrik siyasətinin həyatın bütün sahələrində uğurla davam etdirildiyini tələbələrin diqqətinə çatdırdı. Rektor Cəvər Cəfərov tədbirin əhəmiyyətini vurğulayaraq gələcəyin qurucuları olan gənclərə dövlətçilik ənənələrinə sadiq, yüksək intellektli, geniş dünyagörüşə malik, yüksəkixtisaslı pedaqoji kadrlar kimi formalaşmağı tövsiyə etdi.

**Nigar Aslanova,**
**ADPU-nun Heydər Əliyev Mərkəzinin müdiri**

# Əcnəbi tələbələrin iştirakı ilə 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə və Yeni ilə həsr olunmuş bayram tədbiri



Dekabrın 28-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Əcnəbi tələbələrlə iş üzrə şöbəsinin hazırlıq kurslarında təhsil alan Çin Xalq Respublikası vətəndaşları üçün 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə və Yeni ilə həsr olunmuş tədbir keçirilib. Tədbirdə ADPU-nun Filologiya fakültəsinin Xarici dillər və onların tədrisi metodikası kafedrasının müdiri, dosent Leyla Vəzirova, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Gülnar Xəlilova, Əcnəbi tələbələrlə iş üzrə şöbənin müdiri Aynurə Əsgərova və həmin şöbənin əməkdaşları iştirak ediblər. Öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə baş müəllim Səkinə Ağamirova açaraq qonaqları və əcnəbi dinləyiciləri salamlayıb. Sonra tədbirin təşkilatçıları, rus dilini xüsusi metodla tədris edən baş müəllimlər Səkinə Ağamirova və Solmaz Qasımovanın hazırladıqları səhnəciklər çinli dinləyicilərin ifasında maraqla nümayiş etdirilib, məntiqi oyunlar və tapmacalar keçirilib, oyunlarda qalib gələnlər hədiyyə ilə mükafatlandırılıb, Azərbaycan xalq mahnılarından, dünya incilərindən ibarət musiqi və və rəqslər ifa olunub.

Sonda qonaqlar öz arzu və təbriklərini təşkilatçılara və çinli dinləyicilərə bildirib, xatirə şəkli çəkdirilib. Tədbirin davamı olaraq növbəti gün bayram əhvali-ruhiyyəli Bakımızın görməli yerlərinə çinli dinləyicilərin ekskursiyası təşkil edilib.

Qeyd edək ki, bu kimi tədbirlərin keçirilməsi və mədəni proqramların təşkili ADPU-da təhsil alan əcnəbi vətəndaşların Azərbaycan təhsili, mədəniyyəti, adət-ənənələri və tarixi haqqında geniş məlumat almalarına səmərəli təsir göstərir, həmçinin əcnəbi vətəndaşların ADPU-ya cəlb edilməri istiqamətində məqsədyönlü fəaliyyət növlərindən biri hesab edilir.

# ADPU-nun Şəki Filialında "Payızın rəngləri fırçalarda" adlı rəsm müsabiqəsinə yekun vurulub



Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Şəki Filialında xüsusi istedada və üstün qabiliyyətlərə malik tələbə-gənclərlə səmərəli iş aparmaq məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Belə tədbirlərdən biri kimi noyabr ayının əvvəllərində "Payızın rəngləri fırçalarda" adlı rəsm müsabiqəsi elan olunub. Müsabiqəyə filialın müxtəlif ixtisaslarında təhsil alan 40-a yaxın tələbənin kətan parça və kağız üzərində həm sulu, həm də yağlı boya ilə çəkdiyi rəsm işləri təqdim olunub. Filialın direktoru, dosent Rafiq Rasulovun müvafiq əmri ilə yaradılmış 9 nəfərdən ibarət müsabiqə komissiyası baxış-müsabiqəni yekunlaşdırıb. Komissiyanın qərarı ilə 11 tələbənin işinin müsabiqə şərtlərinə, süjet və kompozisiya tələblərinə uyğun gəldiyi qeyd edilərək fərqləndirilib. Müsabiqənin yekunu olaraq "Tarix-coğrafiya müəllimliyi" ixtisasının IV tədris ili tələbəsi Ləman Nurullayeva, "Xarici dil müəllimliyi - ingilis dili" ixtisasının I tədris ili tələbəsi Şəhla Bayramlı birinci, "Riyaziyyat və informatika müəllimliyi" ixtisasının I tədris ili tələbəsi Gülnar Məmmədkərimli, həmin ixtisasın II tədris ili tələbəsi Həbibə Hüseynova ikinci, "Xarici dil müəllimliyi - ingilis dili" ixtisasının III tədris ili tələbəsi Aygül Əhmədzadə, "İbtidai sinif müəllimliyi" ixtisasının III tədris ili tələbəsi Sahilə Rəcəbova isə üçüncü yerə layiq görülüblər.

"Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasının IV tədris ili tələbələri Könül Heydərli, İlkin Vahidli, "Təhsildə sosial-psixoloji xidmət" ixtisasının II tədris ili tələbəsi Rəsmiyyə İmamverdiyeva, "Riyaziyyat və informatika müəllimliyi" ixtisasının IV tədris ili tələbəsi Aygül Mahmudova, "Məktəbəqədər təlim və tərbiyə" ixtisasının III tədris ili tələbəsi Nərmin Səmədova isə təqdim etdikləri işlərə görə həvəsləndirici yerə layiq görülüblər.

Baxış-müsabiqənin qaliblərinin müvafiq diplom və fəxri fərmanlarla təltif edilməsi nəzərdə tutulub.

# ADPU-nun Ağcabədi Filialında 31 Dekabr- Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə tədbir



Dekabrın 28-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Ağcabədi Filialında 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə tədbir keçirilib. Tədbirin əvvəlində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan filialın direktoru, dosent Mətanət Fərzəliyeva çıxış edərək qeyd etdi ki, bu gün Azərbaycan xalqı əlamətdar bayramları-Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü və Yeni ili qeyd edir. Azərbaycanlılar minilliklər boyu özlərinin tarixi torpağı olan Azərbaycan ərazisində yaşayaraq bəşər sivilizasiyasına böyük töhfələr veriblər. Müharibələr, inqilablar, dünyada gedən ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanıb, azərbaycanlıların bir qismi yurd-yuvalarından didərgin salınıb, deportasiyalara məruz qalıb, iş tapmaq, təhsil almaq məqsədilə doğma Vətəni tərk edərək başqa ölkələrdə məskunlaşıblar. Bu gün dünyada 50 milyondan çox azərbaycanlı yaşayır. Ümummilli lider Heydər Əliyev 16 dekabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Beləliklə, 31 dekabr tarixi bütün azərbaycanlılar üçün əziz olan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd edilir. Sonra natiq tədbir iştirakçılarını Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik etdi.

Filialın tərbiyə işləri üzrə direktor müavini, dosent əvəzi Mahir Səlimov, Xüsusi və ümumelmi fənlər kafedrasının müdiri, dosent əvəzi Tahir Kərimli, Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrasının müdiri Vaqif Allahverdiyev çıxış edərək Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qeyd olunmasını xalqımızın birliyi və mütəşəkkilliyi üçün böyük əhəmiyyət kəsb etdiyini vurğuladılar. Natiqlər filialın professor-müəllim və tələbələrini qarşıdan gələn 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik etdilər.

Tədbir tələbələrin hazırladıqları əyləncəli, musiqili proqramla davam etdirildi.

# ADPU-nun Şamaxı Filialında "Əbədiyyət üfüqlərində doğmuş eşq şairi - Nəsimi" adlı tədbir

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Şamaxı Filialında İmadəddin Nəsiminin vəfatının 600-cü ildönümünə həsr olunmuş "Əbədiyyət üfüqlərində doğmuş eşq şairi - Nəsimi" adlı tədbir keçirilib.

İlk olaraq İmadəddin Nəsiminin keşməkeşli ömür yolu və yaradıcılığı haqqında sənədli film nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan filialın tədris və elmi işlər üzrə direktor müavini, fəlsəfə doktoru Şasəddin Mikayılov qeyd edib ki, böyük Azərbaycan şairi İmadəddin Nəsiminin adı Şərqdə mərdlik, fədakarlıq və iradə rəmzi kimi hörmətlə çəkilir. Altı yüz ildir ki, məsləki uğrunda dara çəkilib dərisi soyulan, son nəfəsində belə öz sözündən dönməyən bu mərd insanın faciəli ölümü şairlərin şeirində, aşıqların sazında tərənnüm edilir. Mütəfəkkir şairin vəfatının 600-cü ildönümünün qeyd edilməsi tarixə ekskursiya məqsədi daşıyır. Bununla bağlı müvafiq qərar UNESKO-nun baş konfransının 38-ci sessiyası çərçivəsində qəbul olunub.

Sonra tədbiri aparıcı tələbələr davam etdiriblər.

Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrasının müəllimi Sevinc Baxşiyeva öz çıxışında poeziyamızda yeni, çox əlamətdar bir dövrün başlanğıcı olan, Azərbaycan dilini ədəbi-bədii dil səviyəsinə yüksəldən qüdrətli sənətkar İmadəddin Nəsiminin zəngin irs qoymasından danışıb. Bildirib ki, Nəsimi doğma dilimizdə sanballı əsərlər yaradan ilk sənətkarlardandır.

Həmin kafedranın müəllimi Sabir İbrahimov Nəsimi yaradıcılığında dini görüşlər barədə danışaraq qeyd edib ki, şair insan sifətinin Allah qələmi ilə çəkilən gözəlliyini tərifləyir və "Ənəlhəqq" (Mənəm Allah!) deyən fədakar sufilərin bu məşhur şüarını sözün həqiqi mənasında deyil, məcaz kimi qəbul edirdi.

Daha sonra "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasının II tədris ili tələbələri ingilis dilində Nəsiminin həyat və yaradıcılığına həsr olunmuş çıxış ediblər. I tədris ili tələbələri isə şairin məşhur "Sığmazam" qəzəlini həm rus, həm də Azərbaycan dillərində, Humay Daşdəmirli "Canımı yandırdı şövqin, ey nigarım, hardasan?" qəzəlini səsləndiriblər.

Sonda "Nəsimi" filmindən fraqmentlər nümayiş olunub.

# Allah rəhmət eləsin!

Azərbaycan Dövlət Pedaqoji Universitetinin kollektivi İnsan və heyvan fiziologiyası kafedrasının professoru Ədalət Fərəcova əzizi **Nəsibə xanımın** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin kollektivi Biologiya və onun tədrisi metodikası kafedrasının dosenti Təranə Abdullayevaya atası **Qeyis müəllimin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin kollektivi Azərbaycan tarixi kafedrasının dosenti **Firudin Cümşüdlünün** vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Redaktor:** Nigar ABBASOVA
**Məsul katib:** Mahirə MUSTAFAYEVA

ÜNVANIMIZ: Bakı, Ü. Hacıbəyli küçəsi, 68 ADPU, Tel.: 498-18-41

Məqalələrdəki faktlara görə redaksiya məsuliyyət daşımır

ADPU-nun web-portalı: adpu.edu.az
Fotolar Nurlan Səmədovundur
Şəhadətnamə № 191

Sifariş: 30
Sayı: 1500
Çapa imzalanıb: 29.12.2017-ci il

ADPU-nun İctimaiyyətlə əlaqələr şöbəsində yığılıb, "Azərbaycan" nəşriyyatında səhifələnib və "Azərbaycan" nəşriyyatının mətbəəsində ofset üsulu ilə çap edilib.